AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 APREL 2018-ci il ÇƏRŞƏNBƏ № 73 (6106) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nazir Əbdülhəmid Gül Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hüquq mühafizə orqanları, o cümlədən Ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunularaq bildirildi ki, Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcək.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Ekvadorun xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Maria Fernanda Espinosa Qarses Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarını Prezident İlham Əliyevə çatdırdı və Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakından məmnunluğunu ifadə etdi. Qonaq Azərbaycanın misli görünməmiş dərəcədə inkişafa nail olduğunu qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə çox mühüm bir mövqeyə malik olmasının önəmini vurğuladı. O qeyd etdi ki, Ekvador Azərbaycan ilə ikitərəfli münasibətləri möhkəmləndirməkdə maraqlıdır. İqtisadi əməkdaşlıqdan danışan Maria Fernanda Espinosa Qarses Ekvadorun da neft ixrac edən ölkə olduğunu vurğulayaraq bir çox sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Dövlətimizin başçısı Ekvador Respublikasının xarici işlər naziri Maria Fernanda Espinosa Qarsesin Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd edərək, bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzvlüyə səsvermə zamanı Ekvadorun ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini qeyd etdi.

Söhbət zamanı iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ekvador Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident,

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə fəaliyyətinizdə daim uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## K.Q.Nəzərova "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında avtomobil sənayesinin inkişafında xidmətlərinə görə Kamran Qılman oğlu Nəzərova "Əməkdar mühəndis" fəxri adı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında avtomobil sənayesinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

İsgəndərov Hümbət Rafiq oğlu
Qasımov Etibar Vilayət oğlu
Məmmədov Füzuli Ziyad oğlu
Səfərov Bəhlul Novruz oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## Biləsuvar rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Biləsuvar rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 2,8 milyon (iki milyon səkkiz yüz min) manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 aprel 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 4, maddə 258, N 12, maddə 1058; 2009, N 2, maddə 75, N 7, maddə 532, N 8, maddə 618, N 10, maddə 776; 2010, N 2, maddə 88, N 7, maddə 610, N 8, maddə 717, N 9, maddə 770; 2011, N 4, maddə 282, N 10, maddə 891; 2012, N 8, maddə 787; 2013, N 9, maddə 1046, N 11, maddələr 1321, 1339; 2014, N 2, maddə 122, N 9, maddələr 1027, 1062; 2015, N 2, maddə 121, N 5, maddələr 521, 543, N 9, maddə 989; 2016, N 2 (II kitab), maddə 228, N 3, maddə 470, N 5, maddələr 869, 879, N 9, maddə 1464, N 10, maddə 1643, N 11, maddə 1816; 2017, N 2, maddələr 173, 185, N 5, maddələr 776, 817, N 8, maddə 1521; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 fevral tarixli 1825 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 11.7-ci bəndinə "qeydiyyata alınan şəxslər" sözlərindən sonra ", "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması ilə bağlı yüklülük sahibi, borclu və yüklülük verən" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 mart 2018-ci il.**

# Azərbaycan-Belarus əməkdaşlığının daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur

**Aprelin 3-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ölkəmizdə səfərdə olan Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası komissiyasının həmsədri Vladimir Semaşkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu və qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük potensialın mövcudluğu qeyd edilib. Bildirilib ki, ölkə rəhbərlərinin qarşılıqlı səfərləri zamanı əldə olunan razılaşmalar və imzalanan sənədlər əlaqələrimizin inkişafını və birgə layihələrin uğurla həyata keçirilməsini təmin edən amillərdəndir. Bu baxımdan dövlətimizin başçısı İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş prioritetlərdə göstərilən tədbirlər planına, habelə respublikada kənd təsərrüfatının inkişafı ilə bağlı digər sərəncam və göstərişlərinə uyğun olaraq, Gəncə avtomobil zavodu ilə Minsk traktor zavodu arasında müştərək müəssisənin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu gün artıq Gəncə avtomobil zavodunun nəzdində fəaliyyət göstərən həmin müəssisədə 10 mininci traktorun yığılıb təhvil verilməsi münasibətilə Belaruslu qonaqların da iştirakı ilə təntənəli tədbirin keçirilməsi bu əməkdaşlığın uğurlu nəticəsi kimi qiymətləndirildi. Azərbaycanlı fermerlərə ən yaxşı hədiyyə olan həmin traktorların, eyni zamanda, regionun digər ölkələrinə də ixracının mümkünlüyünü müzakirə edən tərəflər, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının, qeyri-neft sektorunda, xüsusən maşınqayırma, nəqliyyat, tikinti, ərzaq, kənd təsərrüfatı və digər istiqamətlərdə birgə əlaqələrin genişləndirilməsi üçün ardıcıl məsləhətləşmələrin və təcrübə mübadiləsi keçirməyin zəruriliyini vurğulayıblar.

Görüşdə Azərbaycan-Belarus əməkdaşlığının intensiv davam etdirilməsi üçün qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# "The Baltic Course" internet jurnalında azərbaycanlıların soyqırımı haqqında məqalə dərc edilib

**"The Baltic Course" internet jurnalında AZƏRTAC-ın xüsusi müxbiri Nigar Cəfərlinin 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı məqaləsi dərc edilib.**

Məqalədə qeyd edilir ki, martın 31-də Azərbaycan xalqı yüz il əvvəl, 1918-ci ildə ermənilərin dinc azərbaycanlılara qarşı törətdiyi soyqırımı qurbanlarının xatirəsini anır.

Müəllif diqqətə çatdırır ki, 1918-ci ilin mart-aprel aylarında bolşeviklərdən və şovinist erməni daşnaklarından ibarət silahlı dəstələr Azərbaycanda sovet hakimiyyəti qurmaq bəhanəsi ilə Bakı, Gəncə, Quba, Şamaxı, Xaçmaz, Lənkəran, Hacıqabul və ölkənin onlarla digər yaşayış məntəqələrində kütləvi qırğınlar törədiblər. Bu qırğınlar nəticəsində milli və dini mənsubiyyətinə görə 50 mindən çox insan qətlə yetirilib.

Məqalənin sonunda qeyd edilir ki, Azərbaycan tərəfinin bu tarixi fakta yanaşması birmənalıdır: bu cinayətlər bir daha təkrar olunmamalı, Azərbaycanda olduğu kimi, hər bir ölkədə etnik, mədəni və konfessional rəngarənglik milli sərvət hesab edilməli, multikulturalizm və tolerantlıq cəmiyyətin həyat tərzinə çevrilməlidir.

**AZƏRTAC**


Балтия – СНГ

**Отмечается 100-я годовщина геноцида азербайджанцев**

Нигяр Джафарли, специально для БК, 03.04.2018.

*Ежегодно 31 марта в Азербайджане чтят память жертв геноцида, учиненного армянами против азербайджанцев. В этом году исполняется ровно 100 лет этому тяжкому преступлению.*

В марте-апреле 1918 года вооруженные отряды, состоящие из большевиков и шовинистских армянских дашнаков под

# Milli Məclisin plenar iclasında 25 məsələ müzakirə olunub

**Aprelin 3-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, 25 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar günün aktual məsələlərinə münasibət bildirdilər. Xaricdə məskunlaşmış bəzi soydaşlarımızın sosial şəbəkələrdə və saytlarda yer alan qeyri-etik çıxışları yolverilməz sayıldı və şiddətlə pislənildi. Çıxışlarda vurğulandı ki, Vətənin, xalqın, ordunun şərəf və ləyaqətini qorumaq, milli maraqları və millətin mənafeyini nəzərə almaq siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın borcudur.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycan hökuməti ilə Əfqanıstan hökuməti arasında hava əlaqəsi haqqında, sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişləri şərh etdi. Parlament hər iki sazişi təsdiqlədi.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov 2005-ci il 3 may tarixli Qanunla təsdiq olunmuş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"yə təklif edilən dəyişikliklər barədə məlumat verdi. Bildirdi ki, komissiyanın əsas vəzifələrinə və əsas hüquqlarına dair maddələrə edilən dəyişiklik qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda edilmiş dəyişikliklərin ötən ilin oktyabr ayından etibarən tətbiqi ilə əlaqədardır.

Deputatlar qanunun qəbulunu məqsədəuyğun saydılar.

Sonra Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Hidrometeorologiya fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələni təqdim etdi. Nəzərə çatdırıldı ki, sənəd qanunvericiliyin uyğunlaşdırılması məqsədilə hazırlanıb. Parlament qanun layihəsinə müsbət münasibət bildirdi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Gəmiçilik sahəsində xidmətlərə görə" medalının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda zəruri dəyişiklikləri şərh etdi. Bildirdi ki, hər iki medal milli dövlətçilik atributlarını əks etdirir. Məsələ müzakirə olundu və qanun qəbul edildi.

Gündəlikdəki növbəti dörd qanun layihəsi Milli Məclisə bir zərfdə daxil olmuşdu. Bildirildi ki, "Banklar haqqında", "Kredit büroları haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda və Mülki Məcəllədə edilən dəyişikliklər 2016-cı ilin oktyabrından etibarən tətbiq olunan "Kredit büroları haqqında" Qanunla əlaqədardır. Bu dəyişikliklər banklar tərəfindən borcalanlar haqqında məlumatın Mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi mexanizmini dəqiqləşdirmək, eləcə də reyestrdə toplanan məlumatların qorunmasını təmin etmək məqsədi daşıyır. Plenar iclasda rəy və təkliflər dinlənildi. Səsvermə zamanı deputatlar qanun layihələrinin dördünə də müsbət münasibət bildirdilər.

İclasda Mülki Məcəllədə dəyişikliklərə dair daha bir qanun layihəsinə də baxıldı. Qeyd edildi ki, məqsəd hüquqi şəxs adından çıxış edən şəxsin məsuliyyətinin artırılmasıdır. Qanun qəbul olundu.

Qanunvericiliyin uyğunlaşdırılması baxımından "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" və "Valyuta tənzimi haqqına" qanunlara təklif olunan dəyişikliklər də müsbət qarşılandı.

Parlament "Lisenziyalar və icazələr haqqında" Qanuna uyğun olaraq hazırlanmış iki sənəddə - Ticarət Gəmiçiliyi Məcəlləsində və "Yerin təki haqqında" qanunda dəyişiklik edilməsini də məqsədəmüvafiq saydı.

Sonra Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə bir zərfdə daxil olmuş beş məsələyə baxıldı. Qanunvericiliyin təkmilləşdirilməsi və dəqiqləşdirilməsi baxımından Şəhərsalma və Tikinti Məcəlləsinə, Mülki Məcəlləyə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İcra haqqında" və "Su təchizatı və tullantı suları haqqında" qanunlara təklif edilən dəyişikliklər barədə məlumat dinlənildi. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyuldu və qəbul edildi.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deputatlara məlumat verdi ki, "Tibbi sığorta haqqında" Qanunun 12-ci və 16-cı maddələrində aparılan dəyişikliklər "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 24 noyabr tarixli Prezident Fərmanına uyğun olaraq "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin yaradılması ilə əlaqədardır, həmçinin İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır. Sənəd səsə qoyuldu və qəbul edildi.

Deputatlar İnzibati Prosessual Məcəllənin 38-ci maddəsində, "Fərdi məlumatlar haqqında" Qanunun 13-cü, İnzibati Xətalar Məcəlləsinin 28-ci və 43-cü maddələrində edilən dəyişikliklərə də razılıq verdilər.

Sonra parlamentə "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" yeni qanun layihəsi təqdim olundu. Komitə sədri Əli Hüseynli bildirdi ki, zamanın tələbinə əsasən Azərbaycan qanunvericiliyində mövcud olan daktiloskopik qeydiyyat haqqında qanun genişləndirilib və layihəyə genom qeydiyyatı məsələsi də əlavə olunub. Dörd fəsil, 21 maddədən ibarət olan bu qanun ölkəmizdə insan şəxsiyyətinin eyniləşdirilməsi üçün aparılacaq dövlət daktiloskopik və genom qeydiyyatının məqsədini, prinsiplərini və növlərini müəyyənləşdirəcək, bu sahədə yaranan ictimai münasibətləri tənzimləyəcək. Qanun cinayətkarlığa və terrorizmə qarşı mübarizədə, həmçinin itkin düşmüş şəxslərin tapılmasında səmərəli nəticə əldə etməyə töhfə verəcək.

Müzakirə zamanı deputatlar qanun layihəsinin əhəmiyyətini yüksək dəyərləndirdilər. Belə bir vacib sənədin hazırlanmasında əməyi olan Daxili İşlər Nazirliyi əməkdaşlarına təşəkkür bildirildi. Qeyd olundu ki, layihə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq aktların tələblərinə uyğundur. Bu qanun, həmçinin miqrasiya proseslərinin tənzimlənməsində, vətəndaşlığı olmayan şəxslərin müəyyənləşdirilməsində mühüm rol oynayacaq. Fikir mübadiləsində qanun layihəsi konseptual baxımdan məqbul sayıldı və səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

İclasın yekununda elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli ikinci oxunuşda müzakirəyə çıxarılmış "Peşə təhsili haqqında" qanun layihəsi barədə ətraflı məlumat verdi. Sənəd əsas kimi qəbul edildi və maddə-maddə müzakirəyə başlanıldı. Deputatlar müsbət fikirlərini, təkliflərini parlamentin diqqətinə çatdırdılar. Qeyd olundu ki, ölkəmizin inkişaf etdiyi, yeni istehsal sahələrinin yarandığı indiki dövrdə peşə təhsilinə çox ehtiyac var. Qanun layihəsində innovasiya və sahibkarlıq fəaliyyəti, müasir dövrün çağırış və inkişaf tendensiyaları da nəzərə alınıb.

Plenar iclasda "Peşə təhsili haqqında" qanun layihəsi öncə fəsil-fəsil, sonra bütövlükdə səsə qoyuldu və ikinci oxunuşda qəbul edildi.

İclasda gedən müzakirələrdə birinci vitse-spiker Ziyafət Əsgərov, vitse-spiker Valeh Ələsgərov, komitə sədrləri Siyavuş Novruzov, Ziyad Səmədzadə, Əli Hüseynli, Eldar İbrahimov və Fuad Muradov, deputatlar Fazil Mustafa, Ağacan Abıyev, Hikmət Məmmədov, Novruzəli Aslanov, Cavid Qurbanov, Fəzail Ağamalı, Tahir Kərimli, Çingiz Qənizadə, Sahib Alıyev, Rövşən Rzayev, Aytən Mustafayeva, Elmira Axundova, Tahir Rzayev, Elşad Həsənov, Şəmsəddin Hacıyev, Rauf Əliyev, Rəşad Mahmudov rəy və təkliflərini bildirdilər.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

**AZƏRTAC**

*Küveytin Baş nazirinin birinci müavini:*

# Azərbaycan ilə əlaqələrin inkişafına böyük əhəmiyyət veririk

**Küveyt Azərbaycan ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Azərbaycan Prezidenti İlham Əliyevin və Küveytin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın qarşılıqlı səmimi münasibətləri iki dost ölkə arasında əlaqələrin inkişafında mühüm rol oynayır.**

Bu fikirləri Küveytin Baş nazirinin birinci müavini, müdafiə naziri Şeyx Naser Sabah əl-Əhməd əl-Sabah Azərbaycanın bu ölkədəki səfiri Elxan Qəhrəmanla görüşdə söyləyib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin birinci müavini Azərbaycanla əlaqələrin inkişafına hər zaman yardım etməyə hazır olduğunu söyləyib. O, Azərbaycan ilə bütün sahələrdə ikitərəfli əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirərək, əlaqələrin gücləndirilməsi məqsədilə hər iki ölkənin müvafiq qurumlarının nümayəndə heyətlərinin qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsinin önəmini diqqətə çatdırıb. Baş nazirin birinci müavini hər iki tərəfin ekspertlərinin və yüksək rütbəli məmurlarının görüşlərinin təşkil edilməsinin də zəruriliyini bildirib.

Azərbaycan rəhbərliyinin Küveyt vətəndaşları üçün sadələşdirilmiş viza rəsmiləşdirilməsi qərarının yüksək qiymətləndirildiyini deyən Şeyx Naser Sabah əl-Əhməd əl-Sabah bu addımın, həmçinin iki ölkə arasında birbaşa hava xəttinin açılmasının mövcud əlaqələrin inkişaf tempinə, o cümlədən siyasi, iqtisadi, ticarət, ictimai, humanitar və digər mühüm sahələrin möhkəmlənməsinə müsbət təsir göstərdiyini vurğulayıb. O, təhlükəsizlik, mental uyğunluq, qədim tarix, gözəl təbiət, zəngin mədəniyyət və ləziz mətbəx baxımından küveytlilər üçün çox cazibədar ölkə olan Azərbaycana səfər edənlərin sayında artımın olmasını sevindirici bir hal kimi qeyd edib. Baş nazirin birinci müavini Azərbaycan vətəndaşlarına da elektron vizaların verilməsi fikrini müsbət dəyərləndirib və məsələyə baxılması məqsədilə müvafiq göstəriş verəcəyini bildirib.

Azərbaycan rəhbərliyinin Küveytlə hərtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini qeyd edən səfir Elxan Qəhrəman ölkələrimiz arasında tarixi, dini və mədəni bağlılığın əlaqələrimizin daha da inkişafı üçün münbit şərait yaratdığını bildirib. O, Azərbaycanın İslam və ərəb ölkələri, o cümlədən Küveytlə münasibətlərinə toxunaraq, iki ölkə arasında iqtisadi-ticarət, müdafiə, investisiya qoyuluşu, mədəniyyət və turizm və digər sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacib olduğunu söyləyib. Gələcək illərdə əlaqələrin inkişafı istiqamətində daha intensiv şəkildə fəaliyyətin aparılmasının zəruri olduğunu vurğulayan diplomat əməkdaşlıq əlaqələrinin bütün sahələrdə genişlənəcəyinə və inkişaf edəcəyinə, ticarət dövriyyəsi və səfər mübadilələrinin artacağına inandığını diqqətə çatdırıb.

Görüşdə səfir ölkəmizdə gedən inkişaf proseslərindən, reallaşdırılan sosial-iqtisadi islahatlardan, eləcə də Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətindən ətraflı danışıb.

O, ölkələrimiz arasında birbaşa aviareyslərin həyata keçirilməsinə başlandıqdan sonra Küveytdən Azərbaycana 17 min turistin səfər etdiyi, birbaşa aviareyslərin həftədə 6 dəfə həyata keçirildiyi, 2016-cı ildən etibarən Küveyt vətəndaşlarına Azərbaycanın bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinin tətbiqinə başlanıldığı, həmçinin Küveyt vətəndaşlarının elektron "ASAN Viza" sistemi vasitəsilə qısa müddətdə viza almaq imkanında olduqları barədə məlumat verib. Eyni zamanda, Azərbaycan vətəndaşlarına da elektron vizaların verilməsi imkanlarına baxılmasını xahiş edən səfir məsələnin müsbət həllinin ikitərəfli münasibətlərin inkişafına töhfə olacağını deyib.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıqdan söhbət açan səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Küveytin Azərbaycana göstərdiyi siyasi dəstəyə görə ölkə rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

**AZƏRTAC**

# Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi MSK-da akkreditasiyadan keçib



**Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında (MSK) akkreditasiyadan keçib. Onlar 58 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə sechki-2018.az saytına MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib.

Şahin Əsədli qeyd edib ki, eyni zamanda, indiyədək 56 min 864 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1962-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 54 min 902-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb.

O, həmçinin əlavə edib ki, siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına 5099 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

**AZƏRTAC**

# Azərbaycanın və Türkiyənin daxili işlər orqanları arasındakı səmərəli əməkdaşlıq məmnunluq doğurur

**Aprelin 3-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ramil Usubov müstəqillik qazandıqdan sonra Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, ümummilli lider Heydər Əliyevin bu sahədəki xidmətlərini, dahi şəxsiyyətin "Bir millət, iki dövlət" fəlsəfəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xatırladıb. Nazir dövlətlərimizin başçılarının səmimi, mehriban dostluqları, siyasi iradələri və qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla vurğulayıb.

İkitərəfli əlaqələrin mövcud durumundan danışan Ramil Usubov rəhbərlik etdiyi qurumun qardaş ölkənin Daxili İşlər Nazirliyi ilə münasibətlərin daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayaraq, buna görə təşəkkürünü bildirib.

2016-cı il iyulun 15-də Türkiyədə baş vermiş dövlət çevrilişi cəhdinə toxunan nazir həmin olayların Azərbaycanda da böyük narahatlıq yaratdığını, dövlətçiliyə, demokratiyaya, xalqa, onun iradəsinə və seçiminə qarşı törədilən dəhşətli cinayətin respublikamızda şiddətlə qınandığını nəzərə çatdırıb. O, antikonstitusion əməllərin qarşısının alınması istiqamətində həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində vəziyyətin qısa zamanda sabitləşməsindən, dost dövlətin iqtisadi, siyasi və hərbi qüdrətinin getdikcə artmasından və beynəlxalq arenada nüfuzunun yüksəlməsindən məmnunluğunu ifadə edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən Əbdülhəmid Gül iki ölkənin müvafiq orqanları arasındakı qarşılıqlı faydalı və səmərəli işbirliyini yüksək qiymətləndirib, ikitərəfli münasibətlərin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və dövlətlərimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da iştirak edib.

**AZƏRTAC**

# Azərbaycan və Türkiyə hüquqi sahədə səmərəli əməkdaşlıq edir



**Dost və qardaş Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr xüsusi yer tutur. 2001-ci ildə ulu öndər Heydər Əliyevin Türkiyəyə səfəri zamanı Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Protokol imzalanaraq, hüquqi əməkdaşlığın genişləndirilməsinə təkan verilib, müqavilə-hüquq bazası möhkəmləndirilib, ədliyyə nazirlərinin qarşılıqlı səfərləri və birgə tədbirlər keçirilir, geniş hüquqi yardım göstərilir.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməkdaşlığın genişləndirilməsi məqsədilə Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül geniş tərkibli mötəbər nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib.

Aprelin 3-də qonaqlar əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Qonaqlar, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin və şəhid türk əsgərinin məzarını ziyarət edib, onların əziz xatirəsinə dərin ehtiramını bildiriblər.

Sonra Ədliyyə Nazirliyində Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov ilə Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gül arasında görüş keçirilib.

Tarixən qədim köklərə malik olan ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf etdiyini bildirən F.Məmmədov ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamını xatırladıb. Nazir ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində dövlətlərimizin başçılarının müstəsna rolunu vurğulayıb, hazırkı səfərin iki ölkənin ədliyyə orqanları arasında əməkdaşlığın genişlənməsinə əlavə təkan olacağını bildirib.

F.Məmmədov ölkəmizin ədliyyə tarixinə toxunaraq nazirliyin bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmasından və fəaliyyətindən bəhs edib. Nazir son illər ölkəmizdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlardan və yeniliklərdən danışıb, həyata keçirilən tədbirlərdə türkiyəli mütəxəssislərin yaxından iştirakını, ötən il Türkiyə Ədliyyə Akademiyasının dəstəyi ilə bütün hakimliyə namizədlərin qardaş ölkədə yarım aylıq təcrübə keçdiyini xüsusilə vurğulayıb.

Türkiyənin ədliyyə naziri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin dünyada bənzəri olmadığını və bu əlaqələrin bütün sahələrdə durmadan inkişaf etdiyini söyləyib. O, xarici dövlətə ilk səfərini Azərbaycana etməsindən məmnunluğunu ifadə edərək səfər zamanı Prezident İlham Əliyev tərəfindən qəbul olunmasından şərəf duyduğunu söyləyib.

Əbdülhəmid Gül Türkiyənin məhkəmə-hüquq sistemindən danışaraq aparılan islahatlar barədə məlumat verib, yaxşı təcrübələrin öyrənilməsinin faydasını qeyd edib. Qonaq iki ölkənin Ədliyyə nazirlikləri arasında qarşılıqlı fəaliyyətin bundan sonra da uğurla inkişaf etdirilməsinə hazır olduğunu bildirib.

Söhbət zamanı ölkələrimizin hər zaman bir-birinin yanında olduğu vurğulanıb. Qardaş ölkədə xalqın qəhrəmanlığı sayəsində qarşısı alınan 15 iyul hərbi çevriliş cəhdinin yaşandığı ağır günlərdə Azərbaycan xalqının və Prezidentinin Türkiyəyə dəstək göstərdiyi, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin ölkəmizin haqlı mövqeyini daim dəstəklədiyi xüsusilə vurğulanıb. Türkiyənin ədliyyə naziri 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsinə ehtiramını ifadə edib, ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilikləri qətiyyətlə qınayıb.

Görüşdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, hüquqi yardımın səmərəliliyinin artırılması və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə də tanış olub. Qonaqlara müasir ədliyyə fəaliyyətini və iki ölkə arasında hüquqi əlaqələri əks etdirən xüsusi jurnallar təqdim edilib.

Həmin gün türkiyəli nazirin bir sıra rəsmi görüşləri olub.

Qonaqların, həmçinin Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi, eləcə də paytaxtın mədəni və tarixi abidələri, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanışlığı nəzərdə tutulur.

**AZƏRTAC**

# Türkiyənin ədliyyə naziri Baş Prokurorluqda olub



**Aprelin 3-də Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə baş prokuror Zakir Qaralov tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirib. Zakir Qaralov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə ifadə edilən əlaqələrimizin ölkələrimizin dövlət başçılarının ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxaraq dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb.

Baş prokuror mövcud ikitərəfli hüquqi əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayaraq, Türkiyədə 2016-cı ildə baş vermiş 15 iyul hadisələri ilə bağlı başlanmış cinayət işi üzrə aparılan geniş istintaq-əməliyyat tədbirlərində Azərbaycanın hüquq mühafizə orqanlarının fəallığını qeyd edib.

Türkiyədə dövlət çevrilişinə cəhd zamanı qardaş Azərbaycan dövləti və xalqının göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edən nazir Əbdülhəmid Gül ikitərəfli əlaqələrin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliyini bildirib. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilib. Qonaq bir neçə gün öncə ölkəmizdə yad edilən azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib.

Söhbət zamanı hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb.

Sonda nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub.

**AZƏRTAC**

# Azərbaycanın və qardaş Türkiyənin məhkəmə-hüquq sistemləri arasında əlaqələr uğurla inkişaf edir

**Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyəti aprelin 3-də Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüşüb.**



Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ramiz Rzayev eyni dil, ənənə və dəyərlərlə bir-birinə yaxın olan hər iki xalqın birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu qeyd edib. Türkiyənin və Azərbaycanın dövlət başçılarının qarşılıqlı səfərlərində və beynəlxalq tədbirlərdə həmrəylik nümayiş etdirmələrinin türk dünyasının birliyinin və qarşılıqlı əlaqələrinin daha da möhkəmlənməsi üçün böyük imkanlar açdığı vurğulanıb.

Ali Məhkəmənin sədri Azərbaycan ilə qardaş Türkiyənin məhkəmə-hüquq sistemləri arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu münasibətlərin uğurla inkişaf edərək nəinki ikitərəfli, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də genişləndiyini vurğulayıb. Xüsusilə, Türkiyə Ədliyyə Akademiyasının Azərbaycanın hakim korpusunun formalaşmasında xidmətləri məmnunluqla qeyd edilib.

Ali Məhkəmənin sədri respublikamızda həyata keçirilən məhkəmə-hüquq islahatlarının səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin yeni strukturunda və fəaliyyətində əksini tapdığını deyib. Ramiz Rzayev Türkiyənin ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin məhkəmə orqanları arasında əməkdaşlığın daha da inkişafına xidmət edəcəyinə əminliyini bildirib.

Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gül iki ölkə arasında məhkəmə-hüquq sahəsində qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirib. Qonaq nazir bu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Görüşdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlər və məhkəmə-hüquq təcrübəsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Sonra türkiyəli qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olublar, Ali Məhkəmənin tarixini əks etdirən muzeyə baxıblar.

Türkiyənin ədliyyə naziri muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

**AZƏRTAC**

# "AzerGold" və ADA Universiteti əməkdaşlıq memorandumu imzalayıb

**"AzerGold" QSC və ADA Universiteti tələbələrin karyera hazırlığına dəstək olmaq, kadrların peşəkar inkişafı, tələbəyönümlü və digər tədqiqat layihələrinə töhfə vermək məqsədilə əməkdaşlıq memorandumu imzalayıb.**




QSC-dən AZƏRTAC-a bildiriblər ki, ADA Universitetində baş tutan görüşdə universitetin rektoru Hafiz Paşayev və "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov əməkdaşlıq ətrafında geniş fikir mübadiləsi apararaq birgə fəaliyyətin hər iki tərəf üçün uğurlu olacağına əminliklərini bildiriblər.

Qeyd edək ki, əməkdaşlıq memorandumu ADA Universitetinin Fondu və "Karyera İdarəetmə Mərkəzi" ilə əməkdaşlıq, universitetin ixtisasartırma proqramları vasitəsilə "AzerGold" QSC-nin əməkdaşları üçün peşəkar inkişaf proqramlarının təşkil olunması, birgə tədqiqat layihələrinin keçirilməsi tədbirlərini əhatə edəcək.

"AzerGold" QSC əlvan metal sənayesinin davamlı və dayanıqlı inkişafını təmin etmək üçün kadr potensialının möhkəmləndirilməsinə böyük önəm verir. Bu məqsədlə həyata keçirilən tədbirlər çərçivəsində cəmiyyət artıq Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti ilə müxtəlif sahələrdə geniş əməkdaşlıq edir.

**AZƏRTAC**

# AZAL Lənkərandan Moskvaya birbaşa reys açır

**İyunun 8-dən etibarən "Azərbaycan Hava Yolları"nın Moskva-Lənkəran-Moskva marşrutu üzrə birbaşa reysləri açılacaq.**

Reyslər "Airbus A320" təyyarələri ilə hər həftə cümə günləri olmaqla "Vnukovo" Beynəlxalq Aeroportundan (VKO) uçuş yerli vaxtla saat 10:00-da, Lənkəran Beynəlxalq Aeroportuna eniş yerli vaxtla saat 14:10-da. Lənkərandan uçuş yerli vaxtla saat 15:40-da, Moskvaya eniş yerli vaxtla saat 17:50-də yerinə yetiriləcək.

Aviabiletləri şirkətin www.azal.az saytında bronlaşdırmaq, AZAL-ın kassalarında və rəsmi agentliklərində əldə etmək mümkündür.

Aviabiletləri əldə etmək və daha ətraflı məlumat almaq üçün aşağıdakı telefon nömrələri ilə əlaqə saxlamaq olar: (+99412) 598-88-80 (Azərbaycandan zənglər üçün qısa nömrə: *8880)

E-mail: callcenter@azal.az

Qeyd edək ki, yay cədvəli çərçivəsində Moskvaya Azərbaycanın digər bölgələrindən də - Gəncə (aprelin 13-dən) və Qəbələ (iyunun 4-dən) AZAL-ın reysləri yerinə yetiriləcək. Bu istiqamətlər üzrə reyslər Rusiyanın turizm şirkətləri ilə birgə tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilir.

Bundan başqa, ilk milli loukoster "Buta Airways" Gəncədən Moskvaya birbaşa reyslər həyata keçirir.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# Bakı şəhərinin elektrik enerjisi təchizatının etibarlılığı və dayanıqlılığı barədə hesabat hazırlanıb

**Bakı şəhərinin 2017-ci il üzrə elektrik enerjisi təchizatının etibarlılığı və dayanıqlılığı barədə hesabat hazırlanıb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hesabata əsasən, ötən il əvvəlki illərlə müqayisədə Bakı şəhərinin elektrik enerjisi təchizatının etibarlılığı və dayanıqlılığı üzrə yüksək göstəricilərə nail olunub. Belə ki, Bakı şəhəri üzrə 2017-ci il ərzində orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin müddəti (SAİDİ göstəricisi ilə) 0,87 saat təşkil edib. Orta hesabla istehlakçıya elektrik enerjisinin verilişində yaranmış fasilənin sayı isə (SAİFİ göstəricisi ilə) 0,98 dəfə olub.

Bu göstəricilər əvvəlki illərlə müqayisədə həm müddət, həm də say baxımından aşağıdır. Bunun başlıca səbəbi son 10 ildə Bakı şəhərinin paylayıcı şəbəkəsində mövcud olan 33 ədəd 110 kilovoltluq (kV) yarımstansiyadan 25-nin tikilərək tam yenidən qurulması, 80 ədəd 35 kV-luq yarımstansiyanın inşa edilməsidir ki, həmin yarımstansiyalardan son dördü bir il əvvəl istismara buraxılıb. Bununla yanaşı, paytaxtın 90 faizində yeraltı kabelləşmə işinin həyata keçirilməsi və yaradılan dairəvi elektrik enerjisi təchizatı sxemlərinə qoşulması da Bakı şəhərinin enerji təchizatının etibarlılığı və dayanıqlılığına müsbət təsir göstərib.

**AZƏRTAC**

# Bakıda Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransının yüksək vəzifəli məmurlar səviyyəsində iclası işə başlayıb

**Aprelin 3-də Bakıda Qoşulmama Hərəkatı çərçivəsində xarici işlər nazirlərinin aralıq nazirlər konfransına hazırlıq məqsədilə yüksək vəzifəli məmurlar səviyyəsində iclas işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, tədbiri açan Venesuelanın xarici işlər nazirinin müavini Ruben Dario Molina Qoşulmama Hərəkatının üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinə töhfə verdiyini, onun insan hüquqları, sülh və təhlükəsizliyin təşviq edilməsi üçün toplaşma yeri olduğunu deyib. O bildirib ki, Qoşulmama Hərəkatının prinsipləri və niyyətləri üzv ölkələrin sabit inkişafına yardım edir. Qoşulmama Hərəkatı hansısa tərəfin hegemonluğuna və digər ölkələrin sabitliyinə olan hücumlara qarşıdır. "Biz birlikdə inkişaf edir və sülhə doğru irəliləyirik. Biz Qoşulmama Hərəkatını multikultural hərəkat da adlandıra bilərik. Ölkələri narahat edən problemlərin aradan qaldırılması üçün Hərəkat yaxşı imkanlar yaradır", - deyə nazir müavini qeyd edib.

Azərbaycanı görüşdə ölkəmizin BMT yanındakı daimi nümayəndəsi Yaşar Əliyev təmsil edir. Yaşar Əliyev Qoşulmama Hərəkatı ilə bağlı Bakı Bəyannaməsinin gündəliyində qlobal, regional, regionlararası, siyasi məsələlərin, habelə insan hüquqlarının inkişafı kimi məsələlərin müzakirə olunacağını bildirib. O, Azərbaycanın Qoşulmama Hərəkatının prinsipləri ilə bağlı dəyərləri və konstruktiv müqavilələri dəstəklədiyini deyib. Əlavə edib ki, yekun Bakı Bəyannaməsi həmrəylik prinsipləri əsasında qəbul ediləcək.

Daimi nümayəndə qeyd edib ki, Qoşulmama Hərəkatı regional, sosial məsələlərin, eləcə də qarşılıqlı maraq doğuran məsələlərin həllində mühüm rol oynayır. Yekun layihə sənədləri həmrəylik, qarşılıqlı anlaşma prinsiplərini özündə ehtiva edir. Qoşulmama Hərəkatı bir çox ölkələri narahat edən sosial və digər yönümlü məsələlərin həllinə öz töhfəsini verəcək.

Xatırladaq ki, aprelin 5-6-da Bakıda "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatı çərçivəsində xarici işlər nazirlərinin aralıq nazirlər konfransı keçiriləcək.

Nazirlər Konfransında Qoşulmama Hərəkatında iştirak edən, həmçinin hərəkat yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri, ümumilikdə 800-dən artıq şəxs iştirak edəcək.

Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir.

Azərbaycan Respublikası 2011-ci ildə Balidə keçirilmiş XVI Nazirlər Konfransında Hərəkata qoşulub. 2019-cu ildə Azərbaycan Respublikası Qoşulmama Hərəkatının XVIII Zirvə toplantısına ev sahibliyi edəcək. 2019-2022-ci illər ərzində Azərbaycan Respublikası Qoşulmama Hərəkatına sədrlik edəcək.

**AZƏRTAC**

# “Azərbaycanın 9 möcüzəsi” silsiləsindən “Abşeron Milli Parkı” sənədli filmi təqdim olunub

**Aprelin 3-də Nizami Kino Mərkəzində İDEA İctimai Birliyinin xüsusi layihəsi olan “Azərbaycanın 9 möcüzəsi” silsiləsindən “Abşeron Milli Parkı” sənədli filminin təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.



Filmin təqdimatından əvvəl Leyla Əliyeva “Abşeron Milli Parkı” filminin rejissoru İqor Bışnyovun çəkilişlər zamanı lentə aldığı fotolardan ibarət sərgi ilə tanış oldu. Sərgidəki stendlər “Azərbaycanın zirvələri”, “Azərbaycanın faunası”, “Yırtıcı quşlar”, “Su dünyası”, “Azərbaycanın florası”, “Azərbaycanın Qırmızı Kitabı”, “Köçəri quşlar”, “Çəkiliş zamanı” bölmələrini əhatə edir.

Filmin təqdimat mərasimi İDEA Heyvanlara Qayğı Mərkəzi haqqında videoçarxla başladı.

Tədbirdə çıxış edən rejissor İqor Bışnyov Heyvanlara Qayğı Mərkəzinin əhəmiyyətindən danışdı, burada hər cür şəraitin yaradıldığını vurğuladı və İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür etdi. “Bu və ya digər bu cür 10-20 mərkəz belə daha geniş ərazidə yayılan sahibsiz heyvanlar problemini tam həll edə bilməyəcək. Lakin əsas odur ki, bu Mərkəzin təşkili bizə ətraf mühiti qorumağın vacibliyini xatırladır”, - deyən rejissor bizim özümüzün də təbiətin bir hissəsi olduğumuzu bildirdi.






Beş il əvvəl Azərbaycana Novruz bayramı ərəfəsində gəldiklərini söyləyən İqor Bışnyov görülən işlər barədə də məlumat verdi. Qeyd etdi ki, 5 il ərzində 5 film çəkilib. 2014-cü ildə Şirvan Milli Parkı, 2015-ci ildə Ağgöl Milli Parkı, Göygöl Milli Parkı haqqında filmlər nümayiş etdirilib. Bir il əvvəl “Azərbaycan. Ceyranların xilası” filmi göstərilib. Filmlərdən dördünün milli parklar haqqında olduğunu söyləyən İqor Bışnyov bu il daha bir milli park - Şahdağ Milli Parkı haqqında filmin nümayişinin planlaşdırıldığını qeyd etdi. Bununla yanaşı, sosial şəbəkələrdə də paylaşılan videoçarxların çəkildiyini diqqətə çatdıran İqor Bışnyov süjetlərə 5 milyondan çox baxış olduğunu söylədi. Vurğuladı ki, dünyanın hər yerində Azərbaycanın canlı təbiətinə dair videolar maraqla izlənilir və bu, olduqca böyük əhəmiyyətə malikdir. Filmlər ölkə daxilində və xaricində müxtəlif telekanallarda göstərilib, mükafatlara layiq görülüb. İqor Bışnyov 5 ildir davam edən əməkdaşlığa görə Leyla Əliyevaya təşəkkürünü bildirdi və bu əməkdaşlığın davam edəcəyinə əminliyini bildirdi. O, bu filmlərin canlılar aləminin ciddi problemlərinin həllinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu dedi.




Sonra “Abşeron Milli Parkı” sənədli filmi nümayiş etdirildi. Film Azərbaycanda ən gənc milli park haqqındadır. 2005-ci ildə yaradılmış bu park Bakının təxminən 60 kilometrliyində yerləşir. Ərazisi böyük olmasa da, parkın özünəməxsus xüsusiyyətləri var. Belə ki, buranın zəngin canlı aləmi bir yarımadada cəmləşir. Habelə ərazinin paytaxta yaxın olması buraya gediş-gəlişi asanlaşdırır. Parkın digər xüsusiyyəti isə Xəzər dənizinə yaxın olmasıdır.

“Azərbaycanın 9 möcüzəsi” layihəsinin təşəbbüskarı Leyla Əliyevadır. Layihə çərçivəsində ölkəmizin 9 milli parkı barədə sənədli filmin hazırlanması nəzərdə tutulur. Növbəti filmlərdə Şahdağ, Hirkan, Altıağac, Zəngəzur və Samur-Yalama milli parklarından söhbət açılacaq.

İDEA-nın “Azərbaycanın 9 möcüzəsi” layihəsinin məqsədi ölkəmizin əsrarəngiz təbiət gözəlliklərini təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

**AZƏRTAC**




# KÜRDƏMİR RAYONUNDA REGİONAL MÜŞAVİRƏ





Bərdə şəhərində keçirilmiş pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsindən irəli gələn vəzifələrin icrası ilə bağlı mart ayının 31-də Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti tərəfindən Kürdəmir şəhərində “Aran iqtisadi rayonunda fitosanitar vəziyyət, pambıq əkinlərində alaq otları əleyhinə mübarizənin səmərəliliyinin artırılması və pestisidlərin tətbiqi zamanı qarşıya çıxan problemlər” mövzusunda regional müşavirə keçirilib.

Müşavirədə Dövlət Xidməti yerli qurumlarının — rayon bitki mühafizəsi mərkəzlərinin, rayonlararası bioloji laboratoriyaların, Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin nümayəndələri, torpaq mülkiyyətçiləri və fermerlər iştirak ediblər.

“Bölgədə fitosanitar vəziyyətin təhlili və pambıq əkinlərində zərərli orqanizmlərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi” mövzusunda çıxış edən Dövlət Fitosanitar Nəzarəti Xidmətinin rəisi Camal Quliyev Azərbaycan Respublikasında pambıqçılığın inkişaf etdirilməsi istiqamətində görülən tədbirlərin, pambıq sahələrində əsas zərərli orqanizmlərə qarşı aparılan mübarizə tədbirlərinin əhəmiyyəti barədə məlumat verib.

Dövlət Xidmətinin rəis müavini Yaqub Cəfərov “Pambıq əkinlərində alaq otlarına qarşı səmərəli mübarizənin təşkili” mövzusunda çıxış edərək pambığın boy və inkişafını ləngidən alaq otlarının məhv edilməsinin müasir səmərəli üsullarından bəhs edib.

“Kimyəvi mübarizə tədbirlərinin tətbiqi zamanı qarşıya çıxan problemlər və onların həlli yolları” mövzusunda çıxış edən Dövlət Xidmətinin Respublika Bitki Mühafizəsi Mərkəzinin rəisi Damət Sultanov əsas diqqəti kimyəvi mübarizə zamanı texniki qaydalara əməl olunmasının vacibliyinə yönəldib.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# ŞƏKİDƏ PAYIZLIQ TAXIL ƏKİNLƏRİNƏ HƏSR EDİLMİŞ ELMİ-PRAKTİKİ SEMİNAR

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti, Şəki Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi və Əkinçilik Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə Şəki rayonunda “Payızlıq taxıl əkinlərinin vəziyyətinin qiymətləndirilməsi və müvafiq kompleks yaz tarla işlərinin elmi əsaslarla aparılması” mövzusunda elmi-praktiki seminar keçirilib.



Seminarda çıxış edən Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru Rəsul Balayev “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə taxılçılığın inkişaf etdirilməsi ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin icrası, kənd təsərrüfatı məhsulu istehsalçıları ilə elmi-tədqiqat institutları arasında birgə əməkdaşlığın əhəmiyyəti haqqında danışıb.

Tədbirdə “İnformasiya-məsləhət xidməti sahəsində beynəlxalq təcrübənin tətbiqi”, fermerlərin maarifləndirilməsi məqsədilə “Yeni taxıl sortlarının dəmyə şəraitində potensial məhsuldarlığı və ona təsir edən amillər”, “Buğda əkinlərində müşahidə olunan zərərli orqanizmlər və onlara qarşı kompleks fitosanitar tədbirlər”i mövzularında təqdimat və çıxışlar olub.

Seminarda iştirakçıların sualları müvafiq qaydada cavablandırılıb. Seminar öz işini sahə nümayişi ilə davam etdirib və iştirakçılara nümayiş əkinlərində olan sortlar haqqında ətraflı məlumat verilib, onları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

**N.CAVADOV,**
**“Respublika”.**

# Regionlar dinamik inkişaf və yüksək rifah yolunda

**Ölkəmiz 2004-cü ildən başlayaraq yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Dövlət o zaman güclü olur ki, onun bütün bölgələrinin iqtisadi potensialı dövriyyəyə cəlb edilir, insan kapitalı daim inkişaf etdirilir.**

**Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrasının nəticəsində hazırda ölkənin bölgələri dinamik inkişaf yolundadır.**

**Rayonların siması daim dəyişir, yeniləşir, gözəlləşir. Bu dəyişiklik həm iqtisadiyyatda, həm quruculuq və abadlıq, həm də əhalinin rifah halında öz təsirini aydın göstərir. Təsadüfi deyil ki, Azərbaycan bu gün dünyanın ən islahatçı və yüksək templə inkişaf edən ölkəsi sayılır.**

**Aprelin 11-də keçiriləcək ölkə prezidentliyinə seçkilərdə, təbii ki, seçicilər bu strategiyaya səs verəcəklər.**

**Tinov BAĞMANOV,**
**Balakən rayonu R.Hədisov adına Yeni Şərif kənd tam orta məktəbin müəllimi:**



– 1976-cı ildə Azərbaycan Dövlət Universitetini bitirib ilk təhsilimi aldığım Balakən rayonunun Şərif 2 №-li orta məktəbində coğrafiya müəllimi kimi fəaliyyətə başlamaq qismətimə nail olanda özümü çox xoşbəxt sanırdım. Zənnimdə yanılmamışdım. Fənnə olan xüsusi marağım və şagirdlərə qarşı sevgi hissi günü-gündən uğurlarımın çiçəklənməsinə səbəb oldu. Gənc Müstəqil Azərbaycanın iqtisadi və sosial həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsindəki uğurları, dünyanın qabaqcıl ölkələrinin təhsil təcrübəsinin milli təhsilimizə uğurla inteqrasiyası artıq öz bəhrəsini verməkdədir. Pedaqoji fəaliyyətimə dövlət başçısının verdiyi qiymətin nəticəsidir ki, 2005-ci ildə “Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi” fəxri adına və 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “Tərəqqi” medalına layiq görülmüşəm və bunu bütövlükdə Azərbaycan təhsilinin uğurlarına dövlətimizin qayğısı kimi qiymətləndirirəm.

Qədim və zəngin dövlətçilik ənənələrinin milli liderimiz, möhtərəm Heydər Əliyev tərəfindən dahiyanə surətdə müstəqil Azərbaycanın uzunmüddətli gələcək inkişafına yönəldiyi və onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla yaşadıldığı ölkənin vətəndaşı olmağımla fəxr edirəm.

**Xurşud ZAMANOVA,**
**Mingəçevir şəhəri B.Şıxəliyev dına 6 saylı tam orta məktəbin direktoru:**



– Ölkəmizdə 2018-ci ilin ən böyük siyasi hadisəsi Prezident seçkilərinin keçirilməsidir. Ölkənin ali hakimiyyət orqanına seçkilərin keçirilməsi xalqın siyasi iradəsinin ən mühüm göstəricisidirt. Artıq xalqımız bu yetkin siyasi iradəni, dəyanəti, əzmi və öz rəhbərinə inamı və etibarı dəfələrlə nümyiş etdirmişdir.

Məlumdur ki, hər bir ölkənin siyasi müstəqilliyinin təməlində iqtisadi güc, qüdrət dayanır. Düşünülmüş, gələcəyə hesablanmış iqtisadi siyasətini quran Azərbaycan bu gün dünyanın ən inkişaf edən ölkələri sırasındadır. Müstəqilliyimizin yaşı o qədər çox olmasa da, ölkəmizin başçısı cənab İlham Əliyevin apardığı daxili və xarici siyasət sayəsində son 14 ildə Azərbaycanda yüz illərə bərabər işlər həyata keçirilmişdir.

Tarix üçün on dörd il o qədər də böyük müddət deyildir. Lakin bu illərin hər birində xalqımız üçün, onun firavanlığı üçün böyük işlər görülmüşdür. Mən təhsil işçisi olduğumdan təkcə bircə faktı qeyd etmək istərdim ki, bu illər ərzində üç mindən çox yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. Zənnimcə, bundan qürurverici hadisə ola bilməz. Ölkəmizin hansı bölgəsinə nəzər salsaq, böyük abadlıq-quruculuq işlərinin şahidi oluruq. Aydındır ki, bazar iqtisadiyyatı yolunu seçən ölkələr özəl sektorun inkişafına lazımi hüquqi, siyasi, maddi şərait yaratmasalar, ümumi daxili məhsul istehsalında yüksək göstəricilərə malik ola bilməzlər. Təbii ki, Azərbaycan vətəndaşları bu davamlı tərəqqini, sosial-iqtisadi reallıqları ölkədə aparılan siyasəti daim dəstəkləyiblər. 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları uğurla yerinə yetirilib. Növbəti Dövlət proqramının dördüncü ili də uğurla icra olunmaqdadır. Yola saldığımız 2017-ci ilin sosial-iqtisadi göstəriciləri də sübut etdi ki, reallaşan strategiya düzgündür. Bu strateji xətt qeyri-neft sektorunun sürətli inkişafı nəticəsində əldə olunur. Davamlı tərəqqi sayəsində Azərbaycan sərmayə cəlb olunan ölkədən donor ölkəyə, kredit yönəldən dövlətə çevrilmişdir. Yeni Azərbaycan Partiyasının VI Qurultayında ölkə başçısı demişdir: “2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, zənginləşir və ölkəmiz uğurla inkişaf edir”.

Fərəh doğuran budur ki, ölkəmizdə Prezidentimizin rəhbərliyi altında həyata keçirilən sosial-iqtisadi islahatlar bir-birini tamamlayır. Elm, təhsil, səhiyyə, mədəniyyət sahəsində əldə olunan böyük uğurlar Azərbaycanımızı bu gün dünyanın ən qabaqcıl ölkələrindən birinə çevirmişdir. Xalqın dəstəyi ilə iqtidarın həyata keçirdiyi bütün işlərə cənab Prezidentimiz dəfələrlə öz münasibətini bildirmişdir.

Cənab Prezident demişdir: “... Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir. Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir. Son on dörd il ərzində regional inkişaf proqramlarının icrasının nəticələri də göz qabağındadır”.

Biz ölkə vətəndaşları, tutduğu vəzifədən, sosial statusundan asılı olmayaraq, yekdilliklə aprel ayının 11-də Prezident seçkilərində öz düzgün seçimimizi etməklə nurlu sabahımızı, firavan günlərimizi qazanmış olacağıq.

**Şəhla HACIBALAYEVA,**
**Ağdaş rayonu M.Şeyxzadə adına gimnaziyanın direktoru:**



– Bu gün Azərbaycan xalqı özünün xoşbəxt günlərini yaşayır. Əmin-amanlıq, sabitlik, hərtərəfli inkişafın hökm sürdüyü bütün ölkələrin xalqları kimi. Təbii ki, o xalq xoşbəxtdir ki, onun dincliyi, sabahı, nurlu gələcəyi onu idarə edən böyük şəxsiyyətlərin çiyinlərindədir. Tarix sübut etmişdir ki, xalq həmişə onun qeydinə qalan, min bir əziyyətini çəkən belə şəxsiyyətləri dəstəkləyir, onların ardınca gedir, onlara inanır və arxalanır. Bu gün tam məsuliyyətlə deyə bilərik ki, ölkəmizin son yüz illik tarixində belə şəxsiyyətlərdən biri də xalqımızın güvənc yeri olmuş ulu öndərimiz, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyev olmuşdur. Bugünkü dincliyimizin, əmin-amanlığımızın, həyatımızın bütün sahələrində olan inkişafımızın təməli məhz bu tarixi şəxsiyyət tərəfindən qoyulmuşdur. Ulu öndərin memarı olduğu Azərbaycanın idarəetmə sükanı arxasında bu gün hörmətli Prezidentimiz cənab İlham Əliyevin dayanması xalqımızın bəxtinə yazılmış bir xoşbəxtlikdir. Məhz onun sayəsində son on dörd il ərzində Azərbaycan yüz ilə bərabər bir inkişaf, tərəqqi yolunu keçdi. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada yüksək inkişaf hiss olunmasın. Ölkəmizin elə bir guşəsi yoxdur ki, insanlar orada sosial qayğılarla əhatə olunmamış olsun.

Respublikamızda elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə cənab Prezidentin rəhbərliyi altında həyata keçirilən işlər qürurvericidir. Elə yaşadığım Ağdaş rayonunun timsalında da bunu aydın görmək mümkündür.

Aprel ayının vətəndaşlıq mövqeyimizi bir daha sübut edəcək, ölkəmizin parlaq gələcəyinə səs verəcəyik.

**Aqil İSAYEV,**
**Ağdaş rayonu Qaradeyin kənd tam orta məktəbinin direktoru, coğrafiya üzrə fəlsəfə doktoru:**



– Dövlətimizin başçısı İlham Əliyevin böyük qətiyyətlə söylədiyi “Güclü, qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir” fikri elə bu günümüzün reallıqlarına əsaslanır. Hansı sahəyə diqqət yetirsək, inkişaf, tərəqqi görərik.

Azərbaycanın bu uğurlarının fonunda yeganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də tezliklə ədalətli həllini tapacağına böyük əminliklə inanırıq.

Hər zaman biz Ali Baş Komandanımızın uğurlu siyasəti və qüdrətli ordumuzun gücü sayəsində torpaqlarımızı geri qaytaracağıq. Bunu aprel qələbəsi sübut etdi. Bu qələbənin davamı uzaqda deyil və biz buna inanırıq. Mənfur qonşumuz bilməlidir ki, belə uzaqgörən, siyasəti olan dövlət və xalq hər zaman siyasi liderinin ətrafında sıx birləşmişdir. Xalq Prezidentinə arxalanır, Prezident də xalqına.

Prezidentin diqqət və qayğısı nəticəsində təhsildə yeni konsepsiya formalaşdı. Bu təhsil konsepsiyasının həyata keçirilməsində yüksək səviyyəli peşəkar təhsil verənlərin hazırlaşması və bu konsepsiyanın reallaşması üçün yeni-yeni məktəb binalarının tikilməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi daim dövlətin diqqət mərkəzində olmuşdur. Hörmətli Prezidentimiz İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti nəticəsində onun hakimiyyətdə olduğu qısa müddətdə neft kapitalını insan kapitalına çevirmək istiqaməti uğurla həyata keçirilməkdədir. Məhz bu baxımdan biz təhsil və elm adamları bu prinsipin davamlı olması üçün daha böyük nailiyyətlər qazanılması naminə 11 aprel Prezident seçikilərində fəal iştirakımızla uğurlu inkişafa imza atmış olacağıq.

**Materialları hazırladı:**
**İlham PƏNAHOV,**
**“Respublika”.**

# Məcburi köçkünlərin müxtəlif problemlərinin həllinə hesablanmış daha bir mühüm addım

**Bu gün Azərbaycanda dövlət başçısının rəhbərliyi altında ölkə vətəndaşlarının, o cümlədən sosial qayğıya daha çox ehtiyacı olan qaçqın və məcburi köçkün soydaşlarımızın rifahının davamlı şəkildə yaxşılaşdırılması istiqamətində atılan addımlar, görülən işlər Azərbaycan dövlətinin bu istiqamətdə siyasətini, ölkə başçısının gündəlik diqqət və qayğısını özündə əks etdirməklə bu vacib sahənin daim prioritet olaraq qaldığını təsdiqləyir. Məcburi köçkünlərin bir qisminin uzun illər ağır vəziyyətdə məskunlaşdıqları müvəqqəti yaşayış yerlərindən bütün sosial-texniki infrastrukturu ilə birlikdə müasir tələblər səviyyəsində inşa edilən qəsəbələr və hündürmərtəbəli yaşayış binaları komplekslərinə köçürülmələri, onların sosial müdafiəsi ilə bağlı çoxsaylı fərman və sərəncamların imzalanması dövlətin və dövlət başçısının gündəlik diqqətinin təzahürüdür.**

Məlumdur ki, hər il minlərlə məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Torpaqlarımızın işğaldan azad edilməsinin, məcburi köçkünlərin doğma ocaqlarına qaytarılmasının, buna qədər isə onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının ölkəmizin qarşısında duran prioritet məsələ olduğunu daim önə çəkən dövlətimizin başçısı bu təbəqədən olan soydaşlarımızın problemlərinin, onları narahat edən məsələlərin həlli məqsədilə qarşıya konkret vəzifələr qoyur. Bu vəzifələrin yüksək səviyyədə həlli istiqamətində dövlətimizin başçısının müəyyən etdiyi strategiya, həmçinin qaçqınlara və məcburi köçkünlərə diqqət və qayğısından irəli gələn tapşırıq və tövsiyələr müvafiq qurumlar tərəfindən vaxtından əvvəl və yüksək səviyyədə yerinə yetirilir.

Qeyd edək ki, qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yönəlmiş dövlət siyasətinin olduqca mühüm əhəmiyyət kəsb edən ən vacib faktorlarından biri də ölkəmizin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında daim fəal rol oynayan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın dövlət başçısının müvafiq sərəncamı ilə Birinci vitse-prezident təyin edilməsidir. Belə ki, artıq ölkənin Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyeva da bu sahədə daha fəal və yaxından iştirak etməklə bu təbəqədən olan soydaşlarımızın sosial problemlərinin həllini fəaliyyətinin əsas istiqamətlərindən biri kimi bəyan edərək bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşır. Məhz Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın ötən il martın 9-da ilk müşavirəsini Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin qəzalı binalardan köçürülməsinə həsr etməsi deyilənlərin bariz nümunəsidir.

Mehriban xanım Əliyeva müşavirədəki çıxışında bu günkü reallığı əsas gətirərək görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşadığını önə çəkərək bu istiqamətdə işlərin sürətləndirilməsi üçün təxirəsalınmaz addımların atılmasının vacibliyini deyib. Birinci vitse-prezident çıxış yolu kimi bildirib ki, Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Elə müşavirədən dərhal sonra Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsinin icrası çərçivəsində işlərə başlanıldı və bu işlər mərhələli şəkildə bu gün də uğurla davam etdirilir.



Həmin layihəyə uyğun olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Binəqədi rayonu, 9-cu mikrorayon, H.Babaşov küçəsində yerləşən Təcili Tibbi Yardım Stansiyasının yarımçıq qalmış binasında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinin köçürülməsi məqsədilə Heydər Əliyev Fondunun vəsaiti hesabına Xətai rayonu ərazisində yeni binalar alınmış və Nazirlər Kabinetinin 14 fevral 2017-ci il tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi Qaydası"nın tələblərinə uyğun olaraq Dövlətqaçqınkomun müvafiq əmri ilə yaradılmış komissiya tərəfindən 461 məcburi köçkün ailəsinin yeni binalara köçürülməsi prosesi müvəffəqiyyətlə başa çatdırılmışdır.

Köçürülmə prosesi başa çatdıqdan sonra yeni binalara köçürülmüş məcburi köçkünlərin müvəqqəti qeydiyyatları müxtəlif şəhər və rayonlarda olduğu, həmçinin bəzi məcburi köçkünlərin "məcburi köçkün" vəsiqələrinin olmadığı, onların yeni yaşayış sahələri üzrə müvəqqəti qeydiyyata götürülməsi və digər bu kimi çoxsaylı məsələlərdə yaranmış çətinliklərin aradan qaldırılması məqsədilə Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənovun müvafiq əmri ilə komissiya yaradılmışdır. Dövlətqaçqınkomun aidiyyatı struktur bölmələrinin məsul əməkdaşlarının tərkibinə daxil edildiyi komissiyaya yeni binalara köçürülmüş məcburi köçkünlərin qeydiyyatının təmin edilməsi məqsədilə qısa vaxt ərzində onların əvvəllər müvəqqəti qeydiyyatda olduqları rayonların icra hakimiyyətlərini və Komitənin bütün rayonlar üzrə sektorlarını da bu işə cəlb etməklə qeydiyyat kartlarının alınmasını, eyni zamanda həmin kartların Xətai rayon sektoru tərəfindən yerində təsdiq edilməsini, həmin məcburi köçkün ailələrinin elektron formada və təsdiq edilmiş qaydada adlı siyahılarının dəqiqləşdirilməsini və Komitəyə təqdim olunmasını, məcburi köçkünlərin vəsiqələrlə təmin edilməsini və digər zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılmışdır ki, bütün bunlar da məcburi köçkünləri narahat edən məsələlərin vaxtında həllinə və onların bu qayğılardan azad edilməsinə, rahatlıqlarının təmin olunmasına yönəldilmiş vacib addımlardandır.

Komissiyanın fəaliyyəti və qarşısında duran vəzifələrlə bağlı müraciətimizə cavab olaraq **komissiyanın rəhbəri Regional İdarəetmə, sosial təminat və humanitar yardım şöbəsinin müdiri Cövdət Mehdixanlı** da bildirdi ki, məcburi köçkünlərimiz daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. Həmişə, hər an onların bütün problemlərinə çox həssaslıqla və operativ şəkildə yanaşılmış, eyni zamanda bu istiqamətdə bir yenilik kimi baş tutan həmin tədbiri onların müxtəlif problem və qayğılardan azad edilməsinə hesablanmış addımların bir hissəsi hesab etmək olar.

Belə ki, konkret olaraq bu kompakt məskunlaşma obyektində Vahid Pəncərə Sisteminin tətbiq edilməsi və məcburi köçkünlərin ASAN şəkildə sənədləşmə işinin aparılması və paralel olaraq qeydiyyat kartlarının açılması, kommunal xidmət təşkilatlarındakı xidmət kartlarının onların adına yerindəcə rəsmiləşdirilməsi, məcburi köçkün vəsiqəsi ilə təmin olunmayan məcburi köçkünlərə yeni vəsiqələrin hazırlanması işləri komissiya üzvləri tərəfindən operativ şəkildə icra olunmuşdur. Bundan sonra da işlərin səmərəliliyinin artırılması məqsədi ilə Komitə rəhbərliyi tərəfindən komissiya üzvlərinə digər kompakt məskunlaşma yerlərində də bu cür tədbirlərin keçirilməsi tapşırılmışdır.

Elə bunlara görədir ki, qeyd olunan məsələlərlə bağlı, bir-birinin ardınca Komissiya üzvlərinin çalışdığı qərargaha müraciət edən və məsələlərinin yerindəcə həll olunduğundan razılıqlarını bildirən məcburi köçkünlər də Dövlətqaçqınkomun bu təşəbbüsünü dövlət başçısının onlara qayğısı kimi dəyərləndiriblər.

**Könül İbrahimova** - Biz indiyədək Binəqədi rayonu ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasında məskunlaşmışdıq. Bu illər ərzində nələr çəkdiyimizi heç kəsə arzulamıram. Bu gün isə dövlətimizin biz məcburi köçkünlərə qayğısı sayəsində hərtərəfli şəraitlə təmin edilmiş və çoxdan arzusunda olduğumuz belə bir binada yaşayırıq. Mənzil problemimiz öz həllini tapıb. Dövlətqaçqınkomun bu təşəbbüsü isə bizi bir çox qayğılardan azad edib.

**Anar Muradov** - Bu yeni binada ailə tərkibinə uyğun olaraq 2 otaqlı mənzillə təmin olunmuşam. Biz məcburi köçkünlərə cənab Prezidentin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müntəzəm diqqət və qayğısını öz ailəmizin real həyatında duyub yaşayırıq. Həyata keçirilən hər bir təşəbbüs bizim vəziyyətimizin yaxşılaşdırılmasına, narahatlıq yaradan problemlərimizin aradan qaldırılmasına yönəlib.

**Rafiq Cavadov** - Bu gün biz məcburi köçkünlər bütün problemlərimizin həlli istiqamətində atılan addımları, görülən işləri miqyasına görə dəyərləndirdikdə bir daha əmin oluruq ki, doğrudan da bu ölkə humanizm ideyalarına sadiqliyini qoruyub inkişaf etdirməkdədir. Erməni təcavüzü nəticəsində üzləşdiyimiz çətinliklərin aradan qaldırılmasında humanizm siyasətinə sadiqliyini nümayiş etdirən dövlətimiz bizim vəziyyətimizin yaxşılaşdırılması, problemlərimizin həlli istiqamətində nə lazımdırsa, onu da edir. Bu isə bizdə gələcəyə böyük inam yaradır.

Bütün bu deyilənlər, Azərbaycan dövlətinin öz qaçqın və məcburi köçkünləri üçün həyata keçirdiyi və ölkə ictimaiyyəti, həmçinin beynəlxalq aləm tərəfindən yüksək qiymətləndirilən, dünyada oxşar problemi yaşayan ölkələr üçün nümunə kimi dəyərləndirilən bu tədbirlər özlüyündə bir daha təsdiq edir ki, bu təbəqədən olan soydaşlarımızın problemlərinin həlli Azərbaycan dövlətinin gündəlik diqqət mərkəzindədir.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# İNKİŞAFA, SABİTLİYƏ, YÜKSƏLİŞƏ SƏS VERƏCƏYİK





**2018-ci ilin aprelin 11-i müasir Azərbaycanın tarixində mühüm günlərdən biridir. Həmin tarixdə xalqımız növbəti yeddi il üçün öz prezidentini seçəcəkdir. Bu əlamətdar günlə bağlı respublikamızın müxtəlif əmək kollektivlərində toplantılar keçirilir, insanlar öz namizədi barədə fikir mübadiləsi aparır, demokratik seçki prosesinin mühüm tərkib elementi olan təşviqat kampaniyasında fəal iştirak edirlər. Belə kollektivlərdən biri də "Bakı İnşaat Sənaye" Açıq Səhmdar Cəmiyyətinin əmək kollektividir.**

Şirkət Azərbaycanda ağır metallurgiya sahəsində fəaliyyət göstərən nümunəvi özəl müəssisələrdən biridir. Həm daxili bazarda, həm də yaxın xarici ölkələrin bazarlarında etibarlı tərəfdaş və keyfiyyətli məhsul istehsalçısı kimi tanınan "Bakı İnşaat Sənaye" ASC respublikanın qeyri-neft sektorunda sürətlə inkişaf edən şirkətlərdəndir. Burada müxtəlif növlü poladlar, xüsusən də yeni texnologiyaların tətbiqi ilə korroziyaya davamlı, dənizdə, quruda, inşaatda, qaz və su boru xətlərində istifadə edilən polad borular və müxtəlif ölçülü profillər istehsal olunur. Bakının Nizami rayonunda yerləşən bu müəssisədə 225-dən çox işçi çalışır. Fəaliyyət göstərdiyi sahədə əldə olunmuş yüksək nailiyyətlərə baxmayaraq, səhmdar cəmiyyət imza atdığı uğurları daha da artırmaq əzmindədir.

Sirr deyil ki, ölkədə siyasi sabitlik, dövlət tərəfindən həyata keçirilən düzgün və çevik siyasət olmadan heç bir iqtisadi subyekt inkişaf edə, ölkəsinin tərəqqisinə töhfəsini verə bilməz. 1993-cü ildən başlayaraq əsl dövlət müstəqilliyinə qədəm qoymuş, inamlı inkişaf yolu ilə addımlamaq imkanı qazanmış Azərbaycanın bu günə qədər qazandığı uğurların gerçəkləşdirilməsi yalnız Heydər Əliyev siyasi təməlinin möhkəmliyi, onun müdrik və uzaqgörən strategiyasının müasir zəmanəmizin tələblərinə uyğun məharətlə həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Bu fikir "Bakı İnşaat Sənaye" ASC-də dünən keçirilmiş toplantıda çıxış edənlərin ana xəttini təşkil edirdi.

Tədbiri giriş sözü ilə açan Səhmdar Cəmiyyətin İdarə Heyətinin sədri Ramiz Əhmədov bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin ən müasir tarixində necə mühüm bir tarixi missiyanın daşıyıcısı olduğunu dərk etmək üçün son 15 ildə Azərbaycanın inkişaf mənzərəsinə diqqət yetirmək kifayətdir.

Ulu öndər Heydər Əliyevin "Heç bir cəmiyyət şəxsiyyətsiz yaşaya bilməz" müdrik kəlamını xatırladan Natiq demişdir: "Həqiqətən də, istər ən çətin və mürəkkəb vaxtlarında, istərsə də yüksəliş və sabitlik dövründə hər bir cəmiyyət öz liderinə arxalanır, onun simasında taleyini etibar edə biləcək bir şəxsiyyət görür. 1993-cü ildə tarixinin ən mürəkkəb günlərində xalq öz layiqli oğlu Heydər Əliyevə üz tutdu və bu dahi şəxsiyyəti yenidən özünə rəhbər seçməklə öz qədim torpağının taleyini, gələcəyini seçmiş oldu. Tarix bir daha sübut etdi ki, xalq öz qərarında heç zaman yanılmır. 1993-cü ildən ötən dövr göstərdi ki, Heydər Əliyev strategiyası, siyasi kursu alternativsizdir. Hamımız çox gözəl bilirik ki, ulu öndərin xalqı qarşısında böyük, misilsiz xidmətləri olmuşdur və bunların içərisində öz siyasətinin ən layiqli davamçısı, Azərbaycanı sabitlik, tərəqqi və inkişaf yolu ilə yüksək zirvələrə qaldıra biləcək bir liderin formalaşdırılmasının xüsusi önəmi, əhəmiyyəti vardır. Artıq on beş ildir ki, Azərbaycana rəhbərlik edən Prezident İlham Əliyev təkcə xalqın güvəndiyi bir lider deyil, həm də böyük beynəlxalq nüfuza malik, Vətəninə, xalqına ulu öndər qədər bağlı və sadiq olan böyük bir şəxsiyyətdir."

İlham Əliyevin prezidentliyi illərində ölkəmizin əldə etdiyi nəhəng uğurların panoramasına, dövlət başçısının rəhbərliyi altında müasir Azərbaycanın inkişafı kontekstində baş vermiş geosiyasi dəyişikliklərə diqqət çəkən R.Əhmədov bildirmişdir ki, öz Vətəninə, xalqına bağlı olan cəmiyyətin hər bir üzvü bu tarixi nailiyyətlərdən qürurlanır.

Təsadüfi deyil ki, bu fenomenal uğurlar təkcə ölkə daxilində deyil, dünya miqyasında tanındı, nümunəyə çevrildi: "2007-ci ildə, İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı islahatlar nəticəsində ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrü müvəffəqiyyətlə başa çatdırılmış, milli iqtisadiyyatın, xüsusilə də özəl sahibkarlığın maneəsiz inkişafı, həm xarici, həm də daxili investisiyaların yatırılması üçün son dərəcə əlverişli perspektivlər formalaşmışdır", — deyən R.Əhmədov hazırda cənab İlham Əiyevin diqqəti və qayğısı sayəsində özəl sektorun inamla inkişaf etdiyini bildirmişdir. "Bu gün dövlət başçısı tərəfindən həyata keçirilən dərin iqtisadi islahatlar özəl sektorun dəstəklənməsinə hədəflənib. Mən tam əminliklə bildirirəm ki, bu siyasi kurs davam etdirilsə, ən yaxın gələcəkdə ölkəmiz neft amilindən asılılığını tamamilə minimuma endirəcək, qeyri-neft sektoru və bu sahədə yaradılmış geniş imkanlardan düzgün istifadə edən sahibkarlıq subyektləri Azərbaycanın iqtisadi inkişafında aparıcı qüvvəyə çevriləcəkdir" - vurğulayan Ramiz Əhmədov düzgün seçimin Azərbaycan xalqı üçün nə dərəcədə önəmli olduğunu qeyd etmişdir.

Daha sonra söz "Bakı İnşaat Sənaye" ASC-nin texniki direktoru Adilxan Musayevə verildi. O, çıxışına başlayaraq demişdir: "2003-cü ili xatırlatmaq istərdim. O zaman Azərbaycan öz iqtisadi və sosial inkişafının yeni mərhələsinin astanasında idi. Xalqın böyük əksəriyyətinin etimadından sonra respublikanın ali vəzifəsinə seçilmiş cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin memarı olduğu Azərbaycanın əldə etdiyi uğurların artırılmasının ən optimal yollarını tapmış, həm siyasi, həm də iqtisadi və sosial sferalarda artım imkanlarının diversifikasiyasına qısa zamanda nail ola bilmişdir." Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik proseslərin yeni, daha yüksək səviyyədə təşəkkül tapması və inkişafına toxunan A.Musayev qeyd etmişdir ki, milli demokratik siyasi institutlar hazırda ölkəmizin həyatında mühüm rol oynayır.

Ölkə başçısının balanslaşdırılmış xarici siyasətin həyata keçirdiyini vurğulayan texniki direktor bildirmişdir ki, Azərbaycan həm qonşu ölkələrlə, həm Qərb tərəfdaşları ilə qarşılıqlı faydalı münasibətlər qurmuşdur: "Bu gün ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır, regionumuzda isə Azərbaycanın iştirakı olmadan heç bir ciddi transmilli layihə reallaşdırıla bilməz. Bütün bunlar cənab İlham Əliyevin düzgün xarici siyasətinin həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Ölkəmizin mötəbər beynəlxalq təşkilatların fəal və konstruktiv üzvü kimi rolu daim artır. Dövlət başçısının bütün təşəbbüsləri təkcə regionumuzda deyil, dünya miqyasında inkişafın, sülhün və sabitliyin bərqərar olunmasına xidmət edir." Ölkəmizin son zamanlar mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşkilində və inkişaf etdirilməsində artan roluna da toxunan A.Musayev bunun ölkəmizin imici və nüfuzu üçün son dərəcə əhəmiyyətli olduğunu birldirmişdir.

"Eyni zamanda xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanın əldə etdiyi uğurlara yalnız xalqa arxalanan, ona güvənən və onun dəstəyini hiss edən rəhbər, cənab İlham Əliyev kimi əsl lider keyfiyyətlərinə, diplomatiya məharətinə sahib bir şəxsiyyət nail ola bilərdi.

Toplantıda çıxış edən Fazil Hüseynov, Vahid Rəsulov və başqaları dövlət başçısı cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 ildə görülən işlərə toxunaraq bildirmişlər ki, dövlət başçısının fəaliyyətini tarixi fəaliyyət kimi dəyərləndirmək lazımdır, çünki bu qısa müddət ərzində sözün əsl mənasında nəhəng işlər görülmüşdür. Bu gün cənab İlham Əliyevin bütün təşəbbüsləri ölkəmizin, regionumuzun, eləcə də Avrasiya məkanının iqtisadi mənzərəsini dəyişir, həm Azərbaycan xalqının, həm də bizimlə sülh və əməkdaşlıq şəraitində yaşamaq istəyində olan xalqların rifahına müsbət təsir göstərir, onun mənəvi yüksəlişinin olduqca güclü stimuluna çevrilir. Azərbaycan doğru yoldadır və xalq bu yola davam deyir.

**"RESPUBLİKA".**

# Biz ağsaqqallar hərtərəfli inkişaf siyasətini dəstəkləyirik



Azərbaycanda demokratikləşmə prosesi ilbəil yeni, daha yüksək mərhələyə qədəm qoyur. Bu təkmilləşmə özünü ölkə həyatının həm siyasi, həm iqtisadi, həm də sosial sahələrində əyani şəkildə büruzə verir. Bu il ən əhəmiyyətli siyasi və demokratik hadisə ölkə rəhbərliyinə xalqın seçəcəyi namizəddir.

83 yaşındayam, müxtəlif seçkilərdə iştirak etmişəm, müşahidəçi də olmuşam. Ölkəmizdə son illərdə seçki qanununun təkmilləşməsinin, bu prosesdə demokratikləşmənin, şəffaflığın daim yeni mərhələsinin, daha sürətli və operativ reallaşmasının şahidiyəm. Aparılan islahatlar özündə ədalətli seçimi, bu zəmində ölkənin bütün - siyasi, iqtisadi və sosial sahələrində təbii ki, müasir pozitiv fəaliyyət şəratinin yaradılmasını ehtiva edir. Vurğulamaq gərəkdir ki, ulu öndər Heydər Əliyevdən ölkənin idarəedilməsi estafetini xalqın seçimi ilə qəbul edən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hazırda dünyanın nüfuzlu təşkilatları, əksər dövlətləri ilə beynəlxalq əməkdaşlığı genişlənən, siyasi nüfuzlu, iqtisadiyyatı dinamik inkişaf edən, mütərəqqi və islahatçı ölkədir. Dövlətimizin daxili və xarici siyasəti bir-birini tamamlayır, çox çevikdir və vəhdət təşkil edir. Ölkəmiz dünya dövlətləri ilə geniş, qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələri yaratmışdır və bu münasibətlər daim dərinləşir və yeni effektli məzmun alır. Bu proses davamlıdır, milli mənafeyə uyğun qurulur, müstəqilliyin möhlkəmləndirilməsinə yönəlib və çox böyük uğurlara səbəb olub. Ölkə Prezidentinin çoxsaylı xarici səfərləri də həmin ölkələrlə, nüfuzlu beynəlxalq qurumlarla sıx, çoxtərəfli müxtəlif formatda siyasi və iqtisadi əməkdaşlığına geniş zəmin yaradır. Nəticədə Azərbaycan dünyada mühüm regional iqtisadi-siyasi mərkəzə, tranzit, nəqliyyat qovşağına çevrilib. Mən respublika Ağsaqqallar Şurası Nərimanov rayon təşkilatının üzvüyəm. Bu titanik əməyi və yüksək templi inkişafı ağsaqqallar şurasında da görür, təsdiq edir və dövlət rəhbərliyinin düşünülmüş siyasətini daim dəstəkləyirik. Hazırda ölkəmiz yerləşdiyi regionda güclü iqtisadiyyata, möhkəm ictimai-siyasi sabitliyə malikdir. Bu zəmində həm də qüdrətli ordumuz yaradılıb. İnanırıq ki, Ermənistanın beynəlxalq hüquq normalarını kobud surətdə pozaraq zəbt etdiyi torpaqlarımız sülh yolu ilə qaytarılmasa, Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə silahlı qüvvələrimiz işğal olunmuş ərazilərimizi azad edəcəkdir. Bu inamı bizə bu günədək ölkəmizdə aparılan və hərtərəfli inkişafı təmin edən siyasi kurs yaradıb. Tez-tez ağsaqqal kimi cəmiyyət arasında, müxtəlif müəssisə və qurumlarda olur, ictimaiyyətlə müxtəlif mövzularda rəy mübadiləsi edir, bu sürətli və yüksək templi tərəqqidən razılıq ifadə edirik.

**Azərbaycanda aprel ayının 11-də baş tutacaq prezident seçkilərində həlledici səs xalqa məxsusdur. Belə ki, xalqın hazırkı yüksək templi inkişafın dinamizminin qorunmasını təmin edən namizədi prezidentliyə seçməsi, siyasi, iqtisadi, sosial tərəqqinin davamı olacaq, ölkənin yeni yüksək mərhələyə keçməsinə imkan yaradacaqdır. Biz ağsaqqallar öz seçimimizi etmişik, hərtərəfli inkişaf siyasətini dəstəkləyirik. Belə ki, ədalətli seçim həm mühüm siyasi, iqtisadi, həm də sosial bir prosesdir, bütün sahələrdə dinamik fəaliyyətə imkan yaradan təməl amillərdəndir .**

**Süleyman MEHTİYEV,**
**Nərimanov Rayon**
**Ağsaqqallar Şurasının üzvü,**
**əmək veteranı.**

# Demokratik seçkilərdə hamılıqla iştirak edək

**14 ildir ki, Azərbaycan özünün sürətli inkişaf dövrünü yaşayır. Bu müddət ərzində ölkədə böyük nailiyyətlər əldə olunmuşdur. Azərbaycanın iştirakı olmadan regionda heç bir beynəlxalq layihənin həyata keçirilməsi mümkün deyil.**

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də irimiqyaslı layihələr durmadan həyata keçirilir. Dünyanın hər yerində Azərbaycan mədəniyyəti və incəsənəti geniş təbliğ olunur. Respublikada müasir standartlara cavab verən mədəniyyət ocaqlarının tikintisi, əsaslı təmiri və yenidən qurulması geniş vüsət almışdır. Bu sahədə çalışan insanların maddi-rifah halının yaxşılaşdırılması istiqamətində dövlət başçısının atdığı addımlar onların daha yaxşı çalışmalarına zəmin yaradır. Dövlət başçısının imzaladığı sərəncamlara əsasən mədəniyyət sahəsində çalışanların əməyinin qiymətləndirilməsi, onlara fəxri adların verilməsi mütəmadi hal almışdır.

Respublikanın qərb bölgəsində, qonşu Gürcüstanla və mənfur ermənilərlə həmsərhəd əraziyə malik olan Ağstafa rayonunda Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən müasir standartlara cavab verən bütün zəruri avadanlıqlarla təchiz olunmuş musiqi mərkəzi tikilərək istifadəyə verilmişdir. Bina milli ornomentləri saxlamaqla qədim musiqi aləti olan ud formasında iki hektar ərazidə qısa müddət ərzində inşa olunaraq istifadəyə verilmişdir ki, bu da ölkə başçısının Azərbaycan mədəniyyətinə və incəsənətinə diqqət və qayğısının bariz nümunəsidir. Eyni zamanda Ağstafa Şəhər Mədəniyyət Mərkəzinin əsaslı təmiri başa çatdırılmış, bina müasir istilik və soyutma sistemi ilə, eləcə də avadanlıqlarla təmin olunmuşdur. Qeyd etmək lazımdır ki, Tovuz rayonunda aşıqlar evinin tikintisi davam etdirilir. Son dövrlərdə Qazax tarix və diyarşünaslıq muzeyi müasir üslubda tikilərək istifadəyə verilmiş, eyni zamanda, Ədəbiyyat muzeyi əsaslı təmir olunmuşdur. Həmçinin Tovuzda da tarix və diyarşünaslıq muzeyinin tikintisi davam etdirilir. Ölkədə iqtisadiyyatda ən gəlirli sahə sayılan turizmin inkişafına dövlət dəstəyini xüsusi vurğulamaq lazımdır. Son dövrlərdə ölkəyə turist axını artan dinamika ilə inkişaf edir. Hazırda Qazax rayonundakı Damcılı bulağı adlanan istirahət mərkəzində yenidənqurma işləri aparılır və yeni yol çəkilir. Sözsüz ki, bu məkan yerli və əcnəbi turistlərin böyük marağına səbəb olacaqdır.



Aprel ayının 11-də Azərbaycanda demokratik və şəffaf şəraitdə keçiriləcək prezident seçkilərinə sayılı günlər qalmışdır. Xalqın bu taleyüklü məsələsində bütün ölkə vətəndaşları kimi mədəniyyət işçiləri də öz düzgün seçimlərini edərək layiqli namizədə səs verəcəklər. Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsinin kollektivi seçkilərdə fəal iştirak edəcəklər.

**Ramiz QULİYEV,**
**Ağstafa Regional**
**Mədəniyyət və Turizm**
**İdarəsinin rəisi.**

# Qazaxda Aprel şəhidinin anım günü

**2016-cı ilin Aprel döyüşləri öz qələbəsi, öz əks-sədası ilə Azərbaycan tarixinə düşüb. O qanlı və şanlı döyüşlərdən 2 il ötür. Həmin döyüşlərdə qələbə qazanmaqla yanaşı, biz şəhidlər də verdik. Onlardan biri də qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə şəhid olan Əliyev Orxan Məhəmməd oğludur. Orxanın şəhid olmasının ildönümü ilə əlaqədar onun doğulub boya-başa çatdığı Aslanbəyli kəndində ildönümü mərasimi keçirilib.**



Mərasimində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Kamran Nəbizadə, Azərbaycan Güləş Federasiyasının Birinci vitse-prezidenti, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsinin rəisi, polkovnik Rəsul Quliyev, İcra Aparatının məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ müharibəsi veteranları, şəhidin döyüş yoldaşları, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

İcra başçısı şəhidin məzarı önündə çıxış edərək Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışıb. O, çıxışı zamanı Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə döyüşə hər an hazır olan silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi günün çox da uzaqda olmadığını, qəhrəmanlarımızın qanının yerdə qalmayacağını bildirib.

Milli Məclisin deputatı Kamran Nəbizadə, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov və başqa natiqlər çıxış edərək şəhidlərin göstərdiyi qəhrəmanlıqlardan, ordumuzun gücü, xalq və ordu birliyindən danışıblar. Şəhidin atası Məhəmməd Əliyev şəhidlərə və şəhid ailələrinə gösrərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə ailəsi adından öz dərin minnətdarlığını bildirib, Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova təşəkkürünü çatdırıb.

Sonra şəhidin ata evində ehsan süfrəsi açılıb.

Qeyd edək ki, Əliyev Orxan Məhəmməd oğlu Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdur. Şəhərin mərkəzində şəhidin xatirəsini əbədiləşdirən bulaq-abidə kompleksi inşa edilmişdir.

**Vəli VƏLİYEV, "Respublika".**

# Xocavənd: pambıqçılığın inkişafında məcburi köçkünlər də iştirak edirlər

**Demək olar ki, hər gün Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından təmas xəttindəki atəşkəs rejimini pozur, dinc insanları atəşə tutur, adamların əkin sahələrində işləməsinə mane olmağa cəhd edirlər. Əlbəttə, bu narahatlıq yaratsa da, cəbhə bölgəsində yaşayan hər kəs Milli Ordumuza güvənir, ordu ilə xalqın sıx birliyi düşmənə ən layiqli cavab olur.**



Bu günlərdə Bərdə rayonunda pambıqçılığın inkişafına dair respublika müşavirəsində Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələr xocavəndli məcburi köçkünlərin məskunlaşdıqları Xocavənd qəsəbəsində müzakirə edilib.

Rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək, respublikamızda pambıqçılığın inkişafı ilə bağlı görülən işləri diqqətə çatdırıb. Bildirilib ki, son illərdə aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasət, imzalanan fərman və sərəncamlar, keçirilmiş müşavirələr, qəbul olunmuş Dövlət Proqramı respublikamızda sözügedən sahənin inkişafı üçün əlverişli şərait yaradıb. Son iki il ərzində Azərbaycanda pambıq tədarükü 35 min tondan 207 min tona çatıb.

Qeyd edilib ki, pambıqçılığın inkişafı ilə bağlı təşəbbüsə qoşulan xocavəndli məcburi köçkünlər bu il 97 hektar sahədə pambıq becərəcəklər.

Sonra çıxış edən Prezident Administrasiyasının məsul əməkdaşı Ağaəli Əhmədov Bərdədə keçirilən müşavirədə Prezident İlham Əliyevin pambıqçılığın inkişafı ilə əlaqədar qarşıya qoyduğu konkret vəzifələrdən bəhs edib, görüləcək işlərdən danışıb. Bildirib ki, həyata keçirilən islahatlar, aqrar sektora dövlət dəstəyi, imzalanan fərman və sərəncamlar, qəbul edilən qanun və qərarlar kənd təsərrüfatında ciddi inkişaf dinamikasına, mühüm kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olur.

Müşavirədə çiyid səpininin vaxtında və keyfiyyətlə həyata keçirilməsi, becərmənin aqrotexniki qaydada aparılması, pambıq əkinlərinin suvarma suyu ilə təminatı, məhsuldarlığın yüksəldilməsi ilə bağlı qarşıda duran vəzifələrdən söz açılıb, tapşırıq və tövsiyələr verilib.

**Salman ALIOĞLU, "Respublika".**

*Erməni saytları:*

# Aprel döyüşləri Ermənistanın müdafiə sisteminin yalnız sözdən ibarət olduğunu göstərdi

**Azərbaycan ordusunun 2016-cı ilin aprelində keçirdiyi hərbi əməliyyatlar ermənilər üçün sürpriz oldu. Ermənistanda hər kəs bu ölkənin müdafiə sisteminin yalnız sözdən ibarət olduğunu gördü.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "ArmenianReport" və "1in" xəbər saytlarında Aprel döyüşləri ilə bağlı yayılmış yazıda yer alıb.

Yazıda qeyd olunur ki, Aprel döyüşləri Ermənistan ordusu üçün ağır itki ilə nəticələndi. Hərbi əməliyyat ermənilərin dərin yuxuda olduğunu, ölkənin təhlükəsizlik və müdafiə strategiyasının olmadığını ortaya qoydu.

Müəllif, həmçinin qeyd edir ki, Aprel döyüşlərindən sonra ölkədə nələrinsə dəyişməsi gözlənilirdi. Lakin bu, belə olmadı. Yeni strategiyaların və konsepsiyaların hazırlanması zəruri olduğu halda bu, gözlənilən kimi olmadı.

Yazıda o da diqqətə çatdırılır ki, bu gün Ermənistan ordusunu hökumət yox, fərdlər idarə edir. Ölkədə xarici siyasət, hüquq, iqtisadiyyat, sosial sahələrdə köklü işlərin görülməsinə ehtiyac olduğu halda bu, edilmir. Nəticədə Ermənistanda demoqrafiq vəziyyət getdikcə pisləşir. Dördgünlük müharibənin acısını yaşayan Ermənistanın hələ də 25 illik yuxusuna davam etdiyini yazan müəllif bunun xalqın gələcəyini məhv etdiyini vurğulayır. Ermənistan iqtidarı bilməlidir ki, növbəti zərbə Aprel müharibəsindəkindən daha ağır ola bilər.

**AZƏRTAC**

# Samux: pambıq sahələrinə diqqət artırılır

**Ölkə Prezidenti cənab İlham Əliyevin Bərdə rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində geniş nitqindən irəli gələn vəzifələrin Samux rayonunda icrasına dair geniş müşavirə keçirilmişdir.**



Yığıncaqda Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, RİH başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, pambıqçılıq fəaliyyəti ilə məşğul olan təsərrüfat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Samux RİH başçısı Alı Qocayev çıxış edərək bildirdi ki, 2018-ci il 26 mart tarixdə Bərdə rayonunda cənab İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair keçirilən respublika müşavirəsində, ölkə rəhbəri pambıqçılığın inkişafı ilə əlaqədar bütün aidiyyəti təşkilatlar qarşısında çox ciddi vəzifələr qoyaraq öz tövsiyə və tapşırıqlarını vermişdir. Bekə ki, ölkə Prezidenti Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığını, pambığın da ixracyönümlü məhsul olduğunu və bu sahənin ciddi inkişaf etdiriləcəyini birmənalı bildirdi. Odur ki, zəhmətkeş samuxlular ölkə başçısının qarşıya qoyduğu bu tapşırıqlara daha da məsuliyyətli yanaşmalıdır. Ən başlıcası pambıq əkini zamanı torpağa bütün aqrotexniki qaydalar əsasında qulluq olunmalıdır. Vaxtlı-vaxtında zərərvericilərə və alaq otlarına qarşı dərman preparatlarından düzgün istifadə etməklə mübarizə aparılmalıdır. Həmçinin pambıq sahələrinin suvarılmasında "Pivot" müasir suvarılma sistemlərindən istifadəyə üstünlük verilməlidir.

Yığıncaqda bir qrup fermer çıxış edərək görülən işlərdən ətraflı danışaraq, əkin zamanı yaranan bəzi çətinliklərdən və həlli yollarından danışdılar.

Tədbirdə Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev çıxış edərək qeyd etdi ki, cənab Prezident pambıqçılığın inkişafına böyük vəsait sərf olunduğunu, operativ olaraq bütün lazımi tədbirlərin görüldüyünü, suvarma, elektrik enerjisi ilə bağlı lazimi tədbirlərin görüldüyünü, yeni pambıqyığan kombaynlar, kənd təsərrüfatı texnikasının alınıb ölkəyə gətirildiyini vurğulamışdır.

Səpinin optimal temperatur yarandığı təqdirdə, aprel ayının birinci on günlüyündə başlanmalı və iyirmi iş günü müddətində başa çatdırılması üçün hazırlıq tədbirləri görülməlidir.

Qeyd edək ki, bu il Samuxda istehsalçılar hər hektardan 20 sentner məhsul götürülməsini qarşılarına məqsəd qoymuşlar.

Yığıncaqdan sonra tədbir iştirakçıları "Qarabağ MKT"nin regional filialının Samux şöbəsinin təsərrüfat sahəsindəki pambıq əkiləcək yerlərə və bu əkində istifadə ediləcək texnika və avadanlıqlara baxış keçirmişlər.

**Zabit XƏLİLOV, "Respublika".**

*Erməni portalı:*

# Aprel döyüşləri Ermənistan hərbçilərinin və siyasətçilərinin səriştəsizliyini ortaya qoydu

**Aprel döyüşləri Ermənistan ordusunun qəhrəmanlığı haqqında iddiaların əsasının olmadığını göstərdi. Azərbaycan ordusu həmin döyüşlər zamanı Ermənistanın mövqelərinə ağır zərbələr vurdu.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "1in" saytında yayılan məqalədə yer alıb.

Yazıda bildirilir ki, dördgünlük müharibə Ermənistan hərbçilərinin və siyasətçilərinin səriştəsizliyini ortaya qoydu. Azərbaycan ordusunun uğuru olan bu əməliyyat Ermənistan hərbçilərinin və siyasətçilərinin fəaliyyətinin boş perspektiv üzərində durduğunu göstərdi. 1994-cü ildə əldə edilən atəşkəsdən sonra Ermənistanda yalnız korrupsiyanın, seçki fırıldaqçılığının inkişafı istiqamətində işlərin aparıldığı ortaya çıxdı. Bu döyüşlər Azərbaycanın üstünlüyə malik olduğunu, həmçinin öz strateji məqsədlərinə çatmaq iqtidarında olduğunu sübut etdi.

**AZƏRTAC**

# Aran regionunda "Azərişıq"ın genişmiqyaslı yenidənqurma işləri

**"Azərişıq" ASC respublikanın bütün regionlarında olduğu kimi Aran regionunda da genişmiqyaslı tikinti, yenidənqurma işləri həyata keçirir. Məlum olduğu kimi istismar müddətini başa vurmuş elektrik xətləri külək və digər təbii amillərə adekvat olmadığından açılmalar baş verir, fasilələr yaranır. Odur ki, şəbəkələrin texniki vəziyyətinin mövcud normaların tələblərinə uyğun vəziyyətə gətirilməsi, istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi, texniki itkilərin səviyyəsinin minimuma endirilməsi elektrik enerjisinin realizasiyasının tam həyata keçirilməsi istiqamətində 2018-ci ilin birinci rübündə xeyli işlər görülüb və görülməkdədir.**

Belə ki, Ağcabədi rayonunda Avşar kəndində yerləşən 35/10 kV-luq "Ağcabədi-2" yarımstansiyası tam yenidən qurularaq 35 kV-luq gərginlikdən 110 kV-luq gərginliyə keçirilir. Rayonun Arazbar kəndində artıq hava xətlərinin yenilənməsi prosesi başa çatıb və smart sayğaclar qurlaşdırılıb. Yenidənqurma işləri Ağcabədi rayon mərkəzini də əhatə edir və burada 10 kV-luq hava xəttindən qidalanan KTM-lərin (Komplekt Transformator Məntəqəsi) 0,4 kV-luq tərəfində ÖİN kabellərlə yenidənqurma işləri aparılır. Rayon ərazisində yerləşən Boyat kəndində də yenidənqurma işlərinə başlanılıb.

İmişli rayonunda Bəhrəmtəpə-Horadiz magistral avtomobil yolunun kənarında yerləşən 35/6 kV-luq "Bəhrəmtəpə" yarımstansiyasında da genişləndirmə və yenidənqurma işləri aparılır.




Beyləqan rayonu ərazisində yerləşən Xocavənd qəsəbəsində yenidənqurma işləri başa çatdırılıb, kabelləşmə və smart kart tipli sayğaclar quraşdırılıb. Hazırda Beyləqan rayonunun mərkəzində 10 kV-luq Yağ zavodu hava xəttindən qidalanan KTM-lərin 0,4 kV-luq tərəfində və I Şahsevən kəndində yenidənqurma işləri davam etdirilir.

Zərdab rayonunun Dəkkoba, Dəli Quşçu və İsaqbağı kəndlərində də yenidənqurma işləri başa çatıb. 2018-ci il ərzində bu kəndlərdə 28 ədəd müxtəlif güclü transformator məntəqələri quraşdırılaraq istismara verilib. Hazırda Zərdab rayonunun mərkəzində ÖİN kabellərlə yenidənqurma işləri görülür.

ARAN regionunun cəbhə bölgəsində yerləşən Ağdam rayonunda isə Sarıçoban və Ayaq Qərvənd kəndlərində 0,4 kV-luq şəbəkələrin yenidənqurma işləri yekunlaşıb, hazırda sayğacların quraşdırılması işləri aparılır.

ARAN regionunun cəbhə bölgəsində yerləşən digər rayonu Füzulidə isə ən böyük kəndlərdən olan Böyük Bəhmənli kəndində KTM-lərin qurlaşdırılması işi başa çatıb, hazırda 0,4 kV-luq şəbəkənin yenilənməsi işləri aparılır.

**Qədir ASLAN, "Respublika".**

# Baş Prokurorluq və DİN ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq müstəntiqi ilə bağlı birgə məlumat yayıblar

**Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq müstəntiqi, hazırda xaricdə yaşayan Ramin Nağıyevin "Turan.tv"yə müsahibəsində səsləndirdiyi böhtan xarakterli fikirləri ilə bağlı birgə məlumat yayıblar.**

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, son günlər ayrı-ayrı internet informasiya resurslarında fəaliyyəti ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq müstəntiqi, ciddi qanun pozuntularına yol verdiyinə görə orqandan xaric olunmuş, hazırda ölkə hüdudlarından kənarda yaşayan, oradan dövlətimizə və xalqımıza qarşı qarayaxma kampaniyasında fəal iştirak edən Ramin Nağıyevin "Turan.tv"yə verdiyi müsahibənin mətni yayımlanıb. Birmənalı olaraq bildiririk ki, müsahibədə qeyd olunan iddialar tamamilə yalan və böhtan xarakterli olmaqla polis, prokurorluq və digər hüquq mühafizə orqanlarının cinayətkarlığa qarşı apardığı səmərəli mübarizəyə kölgə salmaq məqsədi daşıyır və həqiqətə zidd olmaqla bir-birini təkzib edən saxta uydurmalardan başqa bir şey deyil.

Polis, prokurorluq və digər hüquq mühafizə orqanlarının peşəkarlıqla həyata keçirdikləri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, o vaxtkı xüsusi təyinatlı polis dəstəsinin komandiri Rövşən Cavadov, qardaşı Mahir Cavadov, eləcə də Əliyusif Tahirov, Elçin Əmiraslanov, Dəyanət Kərimov, Sultan Səlimov, Səxavət Hümbətov, Şəmsi Abdullayev və qeyriləri silahlı cinayətkar birlik təşkil edərək cəmiyyətdə dövlətə qarşı inamsızlıq hissi formalaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, hakimiyyəti qanunsuz yolla ələ keçirmək və bu cinayətkar niyyətlərinin reallaşmasında onlara mane ola biləcək dövlət və ictimai xadimlərin terror yolu ilə aradan götürülməsi üçün sui-qəsd planları işləyib hazırlayıblar. Onların 1993-cü il aprelin 23-də Bakı Ali Hərbi Dənizçilik Məktəbinin rəisi Eduard Hüseynovun, 1994-cü il sentyabrın 29-da Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun qətlə yetirilmələri təkzibolunmaz dəlillərlə tam sübuta yetirilib.

Təqsirləndirilən şəxslərin cinayət əməlləri cinayət-prosessual qanunvericiliyinin tələblərinə müvafiq qaydada çəkişmə, aşkarlıq, obyektivlik, müdafiə hüququnun təmin edilməsi və digər prinsiplərinə riayət olunmaqla toplanmış dəlillərlə, özlərinin etirafı, şahid və zərər çəkmiş şəxslərin ifadələri, ekspertiza rəyləri və işin digər faktiki halları ilə tam sübuta yetirilib. Qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinə əsasən, təqsirləndirilən şəxslərin qeyd olunan cinayət əməllərini Rövşən və Mahir Cavadov qardaşlarının ləğv olunmuş xüsusi təyinatlı polis dəstəsinin üzvləri və qeyrilərini cəlb etməklə təşkil və rəhbərlik etdikləri, sabit silahlı qrup tərəfindən hakimiyyətin zorla ələ keçirilməsi, ictimai qaydanın qorunması ilə əlaqədar Azərbaycan Respublikasının dövlət orqanlarının normal fəaliyyətinin sarsıdılması, bandanın bu kimi hazırlanan və törədilmiş cinayət əməllərindən məlumatlı olan vəzifəli şəxslərin fiziki məhvi məqsədilə törədilməsi tutarlı dəlillərlə sübut olunub.

Törətdikləri ağır cinayət əməllərinə görə həmin birlik və bandaların əksər üzvləri Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, barələrində məhkəmələrin hökmü ilə ömürlük və digər uzunmüddətli azadlıqdan məhrumetmə cəzalarına məhkum olunublar.

"Vətəndaşlarımızın nəzərinə onu da çatdırmaq istərdik ki, qanunsuz yolla hakimiyyətə yiyələnmək məqsədilə terror hadisələri törətməkdən belə çəkinməyən silahlı mütəşəkkil cinayətkar dəstənin üzvləri və onların havadarları hələ də vaxtilə həyata keçirdikləri qətlləri müxtəlif üsullarla pərdələməklə ictimaiyyətin gözündə özlərinin günahsız, məsum obrazlarını yaratmağa uğursuz cəhdlər edirlər. Unudurlar ki, görkəmli dövlət xadimlərinin qətlə yetirilməsi ilə nəticələnmiş ağır cinayətlərin müəllifləri məhz özləridir. Buna görə də onlar qanunla müəyyən olunmuş cəzadan əlavə, həm də xalqımızın ən qatı nifrətini ömürlük qazanıblar", - deyə birgə məlumatda qeyd olunub.

**AZƏRTAC**

# Azercell-dən tələbələr üçün növbəti imkan - Yay Tələbə Təcrübə Proqramı

**Hər zaman gənc nəslin inkişafına böyük önəm verən Azercell Telekom növbəti dəfə aprelin 2-dən etibarən Azərbaycanın ali təhsil ocaqlarında bakalavr səviyyəsinin son iki kursunda və magistr pilləsində təhsil alan tələbələr, eyni zamanda Təhsil Nazirliyi SABAH qrupu tələbələri üçün Yay Tələbə Təcrübə Proqramına start verib.**




Tələbələr 2018-ci ilin 13 aprel tarixinə qədər https://www.azercell.com/az/company/career/development_oportunities/internship2018/ linkinə daxil olmaqla proqrama müraciət edə bilərlər. Tələbələr 2 iyul tarixindən başlayacaq proqram çərçivəsində Azercell-də 2 ay təcrübə keçmək şansı qazanacaqlar. Yay Tələbə Təcrübə Proqramı mərhələlərlə seçilən gənclərə Azercell-də təcrübə keçmək imkanı qazandıraraq ali məktəblərdə öyrəndikləri nəzəri bilikləri real iş şəraitində tətbiq etmək imkanı yaradır. Tələbələr telekommunikasiya sənayesi barədə birbaşa mənbədən bilik əldə edərək maraqlı və məsuliyyətli layihələrə cəlb olunurlar, bu da gənclərin gələcək karyera inkişafına öz töhfəsini verir. 2008-ci ildən indiyə qədər keçirilən bu proqram çərçivəsində 13 nəfər SABAH qrupu tələbələri olmaqla 155 tələbə Azercell-in Tələbə Təcrübə Proqramı çərçivəsində təcrübə keçib, onlardan 20-si isə şirkətdə işlə təmin olunub.

**Ülvi QARAYEV, "Respublika".**

# Açıq tenderin nəticələri barədə məlumat

**Layihənin adı:** *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.*

| | |
|---|---|
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/18<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 18 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Genrl» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası**, Bakı şəhəri, Xətai rayonu, Gen.S. Mehmandarov küç ev 72; m17<br>**Açılışda oxunan təkliflər:**<br>**«Qara- Çay» Fərdi Şirkəti 2 528 041,40**<br>«Şəms-95» **firması** 2 627 496,96<br>«Tunel Metro Inşaat» MMC 2 740 963,51<br>«Genrl» MMC 2 381 879,01<br><br>«Genrl» MMC 2 381 879,01- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/19<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 19 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı: «Qara- Çay» Fərdi Şirkəti**<br>**Ünvanı: Azərbaycan Respublikası**, Abşeron rayonu,Xırdalan Şəhəri,26-ci məhəllə<br>**Açılışda oxunan təkliflər:**<br>**«Qara- Çay» Fərdi Şirkəti 2 270 954,10**<br>«Piramida- F.R.» MMC 2 557 901,27<br>«Tunel Metro Inşaat» MMC 2 738 412,03<br>«Genrl» MMC 2 649 355,92<br><br>**«Qara- Çay» Fərdi Şirkəti** 2 270 954,06- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/20<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 20 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Minera» MMC<br>**Ünvanı:** Bakı şəhəri,Nəsimi r-nu,Zərifə Əliyeva ev 38,m.24<br>**Açılışda oxunan təkliflər:**<br>«Rabitəinşaat» ASC 2 570 025,11<br>**«Nur Tikinti» MMC** 2 479 563,05<br>«Minera» MMC 2 385 302,47<br><br>«Minera» MMC 2 385 302,47- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/21<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 21 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Piramida- F.R. » MMC<br>**Ünvanı: Bakı şəhəri**, C.Hacıbəyli,52/20<br>**Açılışda oxunan təkliflər:**<br>«Saqibət-İnşaat» MMC 2 379 114,27<br>**«Azəraqrartikinti» ASC** 2 745 395,88<br>«SNT» İnşaat şirkəti 2 468 756,00<br>«Piramida- F.R. » MMC 2 283 328,93<br><br>«Piramida- F.R. » MMC 2 283 328,93 - **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/22<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 22 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Saqibət-İnşaat» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası**, Ağcəbədi rayonu, Aşağı Avşar kəndi<br>**Açılışda oxunan təkliflər:**<br>«Saqibət-İnşaat» MMC 2 381 987,00<br>**«Azəraqrartikinti» ASC** 2 795 095,49<br>«SNT» İnşaat şirkəti 2 487 323,00<br>«Piramida- F.R. » MMC 2 594 497,79<br><br>«Saqibət-İnşaat» MMC 2 381 987,01 - **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/23<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 42 mənzilli 23 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Fullcom» MMC<br>**Ünvanı:** Azərbaycan Respublikası,Quba şəhəri, məhəllə 32/33<br>**Açılışda oxunan təkliflər:**<br>**«AS Tikinti» MMC** 2 563 400,97<br>«Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC 2 739 820,36<br>**«T.T.Ş. İnşaat» MMC** 2 654 263,00<br>«Fullcom» MMC 2 382 095,76<br><br>«Fullcom» MMC 2 382 095,76- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Bina/24<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 7 mərtəbəli 35 mənzilli 24 №-li yaşayış binasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı: «Simmetriya» MMC**<br>**Ünvanı: Azərbaycan Respublikası**, Şəmkir rayonu, Dəllər ŞTQ<br>**Açılışda oxunan təkliflər:**<br>**«Simmetriya» MMC** 2 362 244,20<br>«Şəms-95» firması 2 448 130,16<br>«Gilan Inşaat» MMC 2 600 947,00<br>«Xumar-98» Firması 2 701 909,64<br><br>**«Simmetriya» MMC** 2 362 244,19 - **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Məktəb/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 792 şagird yerlik məktəbin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı: «Nur Tikinti» MMC**<br>**Ünvanı:** Bakı şəh. Binəqədi rayonu , Eldar Babayev 30/24-cü məhəllə, bina 4<br>**Açılışda oxunan təkliflər:**<br>«Rabitəinşaat» ASC 4 345 891,87<br>**«Nur Tikinti» MMC** 4 218 811,64<br>«Minera» MMC 4 485 261,55<br><br>**«Nur Tikinti» MMC** 4 218 811,64- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Uşaq baxçası/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 140 yerlik uşaq baxçasının tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Şəms-95» firması<br>**Ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai rayonu, Neapol, ev 23,mənzil** 37<br>**Açılışda oxunan təkliflər:**<br>**«Simmetriya» MMC** 2 131 932,80<br>«Şəms-95» firması 2 120 137,52<br>«Gilan Inşaat» MMC 2 230 816,47<br>«Xumar-98» Firması 2 182 753,84<br><br>«Şəms-95» firması 2 120 137,52 - **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Klub/İnzibati/Həkim/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində klub-icma mərkəzinin, inzibati binanın və həkim məntəqəsinin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «HTM Holdinq» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası, Saatlı** rayonu, Əlisoltanlı kəndi Fin şəhərciyi<br>**Açılışda oxunan təkliflər:**<br>**«Lanel» MMC** 997 595,21<br>«HTM Holdinq» MMC 988 493,25<br>«Azəri Servis LTD» MMC 1 032 946,69<br>**«Proqress» Sənaye-İstehsalat Şirkəti** 1 014 269,00<br><br>«HTM Holdinq» MMC 988 493,25- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Abadlıq və yollar/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində mühəndis hazırlığı, abadlıq işləri və yol-küçə şəbəkəsinin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Azeri Servis LTD» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası,AZ 1007, Bakı şəhəri, A. Mirqasımov küç.,29,m. 150**<br>**Açılışda oxunan təkliflər:**<br>«AS-Təmir Tikinti» MMC 4 526 740,70<br>«HTM Holdinq» MMC 4 586 235,19<br>«Azeri Servis LTD» MMC 4 496 206,19<br><br>«Azeri Servis LTD» MMC 4 496 206,19- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Xarici elektrik təchizatı/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsinin elektrik təchizi üçün "Yeni" 35/10 кV-luq transfarmator yarımstasiyasının 2 ədəd 10 MBA-lıq və 10/0,4 кV-luq Transformator Məntəqələrinin müvafiq güc transfarmatorları və avadanlıqlarla təchiz edilməsi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı: «ATEF Şirkətlər Qrupu» MMC**<br>**Ünvanı: Azərbaycan Respublikası,AZ 1042, Bakı şəhəri, Suraxanı r-nu,Əmircan ŞTQ, Əmircan qəsəbəsi**<br>**Açılışda oxunan təkliflər:**<br>**«Kaskad-Hidro» MMC** 1 421 563,00<br>«İnterenerqo» müəssisəsi 1 510 749, 28<br>**«ATEF Şirkətlər Qrupu» MMC** 1 307 440,00<br><br>**«ATEF Şirkətlər Qrupu» MMC** 1 307 440,00- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Məhəllədaxili elektrik təchizatı/2<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 35/10 kV-luq "Yeni" yarımstasiyasının və 2 ədəd 10/0,4 kV-luq Transformator məntəqələrin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı: «ATEF Şirkətlər Qrupu» MMC**<br>**Ünvanı: Azərbaycan Respublikası,AZ 1042, Bakı şəhəri, Suraxanı r-nu,Əmircan ŞTQ, Əmircan qəsəbəsi**<br>**Açılışda oxunan təkliflər:**<br>**«Kaskad-Hidro» MMC** 1 537 194,00<br>«İnterenerqo» müəssisəsi 1 632 574,37<br>**«ATEF Şirkətlər Qrupu» MMC** 1 449 349,75<br><br>**«ATEF Şirkətlər Qrupu» MMC** 1 449 349,75- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Xarici elektrik təchizatı/3<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsi üçün xarici elektrik təchizatı şəbəkəsinin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «İnterenerqo» müəssisəsi<br>**Ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri**, Nəsimi rayonu, Asif Məhərrəmov küc., ev 34 A<br>**Açılışda oxunan təkliflər:**<br>«İnterenerqo» müəssisəsi 2 545 012,37<br>«Sumqayıt Elektrik Dəstləşdirmə» ASC 2 662 180,00<br>**«ATEF Şirkətlər Qrupu» MMC** 2 581 724,06<br><br>«İnterenerqo» müəssisəsi 2 545 012,37- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Su təchizatı, kanalizasiya və suvarma/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində su təchizatı, kanalizasiya və suvarma sisteminin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Azərsutəchizattikinti» ASC<br>**Ünvanı:** Azərbaycan Respublikası,_Bakı şəhəri, Nərimanov rayonu, Ə. Rəcəbli 1 küçəsi, 10a<br>**Açılışda oxunan təkliflər:**<br>**«HTM Holdinq» MMC** 4 562 804,98<br>«A-AS İnşaat» MMC 4 627 352,00<br>«AS-Təmir Tikinti» MMC 4 706 217,00<br>«Azərsutəchizattikinti» ASC 4 498 141,18<br><br>«Azərsutəchizattikinti» ASC 4 498 141,18- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/İstilik/Qaz/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində qaz təchizatı, istilik şəbəkəsi və qazanxananın tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Tunel Metro Inşaat» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası** Lənkəran şəhəri, H.Aslanov, ev 54<br>**Açılışda oxunan təkliflər:**<br>«Tunel Metro Inşaat» MMC 3 350 578,55<br>«Azeri Servis LTD» MMC 3 491 365,66<br>Rabitəinşaat» ASC 3 602 739,10<br><br>«Tunel Metro Inşaat» MMC 3 350 578,55- **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/ATS/Rabitə/1<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində ATS binasının və rabitə şəbəkəsinin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «HTM Holdinq» MMC<br>**Ünvanı: Azərbaycan Respublikası, Saatlı** rayonu, Əlisoltanlı kəndi Fin şəhərciyi<br>**Açılışda oxunan təkliflər:**<br>«HTM Holdinq» MMC 635 594,88<br>**«Lanel» MMC** 771 668,38<br>«Azərsutəchizattikinti» ASC 706 558,10<br><br>«HTM Holdinq» MMC 635 594,88 - **1-ci yer** |
| **Müqavilənin nömrəsi:** MKSİF/AZ/1346/Abşeron/1000/Xarici və məhəllədaxili elektrik təchizatı/4<br>**Ölkə: Azərbaycan Respublikası**<br>**Müqavilənin mövzusu:** "Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində xarici və məhəllədaxili elektrik təchizatı şəbəkəsinin tikintisi"<br>**Seçim üsulu: Açıq tender**<br>**Müqavilənin icra müddəti: 12 ay**<br>**Qiymətləndirmə valyutası: Azərbaycan manatı** | **Qalib firma haqqında məlumat:**<br>**Adı:** «Sumqayıt Elektrik Dəstləşdirmə» ASC<br>**Ünvanı:** Azərbaycan Respublikası, AZ 1007, Sumqayıt şəhəri, 42-ci məhəllə Cerkasski küçəsi, 21<br>**Açılışda oxunan təkliflər:**<br>«İnterenerqo» müəssisəsi 3 456 126,73<br>«Sumqayıt Elektrik Dəstləşdirmə» ASC 3 396 678,01<br>«Elektrik Quraşdırma» Müəssisəsi 3 514 907,89<br><br>«Sumqayıt Elektrik Dəstləşdirmə» ASC 3 396 678,01- **1-ci yer** |

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Sağlamlıq Mərkəzi publik hüquqi şəxs 2018-ci il üçün dərman, sarğı ləvazimatları və materiallarının satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1 - "Dərman, sarğı ləvazimatları və materiallarının satınalınması"**

Tenderdə iştirak etmək üçün iddiaçılar Lot-1 üzrə 560,00 manat pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender Komissiyasından ala bilərlər.

*Alan bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Bank kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*SWİFT: CTREAZ 22*
*Vəsaiti alan: Bakı Sağlamlıq Mərkəzi publik hüquqi şəxs*
*H/H:*
*AZ57CTRE00000000000008428201*
*VÖEN: 1402500641*
*Fond: 7*
*Büdcə təsnifatının kodu: 142340*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli tender təklifinə, yüksək keyfiyyətə, analoji işlər üzrə iş təcrübəsinə, kadr potensialına, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün 11 may 2018-ci il saat 17:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi-tender proseduru keçirildiyi tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldıqdan sonra ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim edilir. Bank təminatını tender təklifi zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirməyə buraxılmır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq arayış;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*- iddiaçıların xüsusi razılıq lisenziyalarının surəti;*
*- iddiaçının potensial, texniki və kadr imkanları, analoji işlərdə təcrübəsi haqqında rəsmi məlumat.*

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib edilməlidir. Tender təklifi və bank təminatı 21 may 2018-ci il saat 17:00-dək Bakı şəhəri, Azadlıq prospekti 112 ünvanına təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaq.

İddiaçıların təklifləri 22 may 2018-ci il tarixdə Bakı şəhəri, Azadlıq prospekti 112 ünvanda saat 12.00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar.

**Bakı şəhəri, Azadlıq prospekti 112**

**Telefon: 0774817180**

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətin 15 mart 2018-ci il tarixdə keçirilmiş Açıq tenderində Lot-1 üzrə "Auto Azərbaycan" MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

Əsgərov Məzahir Əkbər oğluna Bakı şəhəri, Azadlıq pr.-80, ev 35 ünvanına verilmiş kupçi itdiyi üçün etibarsız sayılır.

Məmmədov Robert Nurəddin oğluna Pirşağı bələdiyyəsi tərəfindən 1200 kvadratmetr torpaq sahəsinə verilmiş 1135A saylı 25.10.2006-cı il tarixli icarə müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Mürsəlov Ceyhun Əfrasiyab oğlunun adına Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abşeron RTİB tərəfindən Şabran şəhəri, Atatürk küçəsi, ev N-14 Hüseynov Səftər Əjdər oğlunun adına verilmiş 1/745 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abşeron RTİB tərəfindən Şabran şəhəri, D.Əliyeva küçəsi, ev N-8 Səddərov Hacıməmməd Eyyub oğlunun adına verilmiş 1a/2192 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abasquliyev Teymur Kamil oğlunun adına Bakı şəhəri, Xəzər rayonu, Şağan qəsəbəsi, Y.Əsədullayev küçəsi, ev 15/5 məxsus MA N0383619 HDQHDƏDR çıxarış itdiyi üçün etibarsız sayılır.

"MCS - İnformasiya, Təhlil, Analitika, Tədbir və Araşdırma Agentliyi" (VÖEN: 1501301601) Məhdud Məsuliyyətli Cəmiyyətə aid möhür itdiyi üçün etibarsız sayılır.

Ələkbərova Suada Rahim qızının adına Azərbaycan Dövlət Rəssamlıq Akademiyası tərəfindən verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır

Vergilər Departamenti tərəfindən "MİRAGE TOUR" MMC adına verilən 1702215581 saylı VÖEN itdiyi üçün etibarsız sayılır (Hüquqi ünvan: Bakı şəhəri, Səbail r-nu, Vaqif Mustafazadə küç.-6/10, 4 mərtəbə).

(Məmmədova) Hidayətova Esmira Nuxbalayevnanın adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Binəqədi r-nu, 7 mkr, ev-24, mənzil-13).

İsmayılova Şölə Yaşar qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Yasamal r-nu, İzmir küç.-5, mənzil-15).

Zeınalova Aına (Zeynalova Ayna) adına Dövlət Miqrasiya Xidməti tərəfindən 23.11.2016-cı ildə verilən D.Y.İ 0018222 nömrəli A.R. Ərazisində Daimi Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 8 avqust 2002-ci il tarixli 4 nömrəli qərarı ilə Sütəmurdov kəndində Musayev Vaqif Rəsul oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 989 A; KOD 80200058) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 12 nömrəli qərarı ilə Şahağac kəndində Qurbanov Zaur Ağəddin oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 1049 A; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon aqrar islahat komissiyasının 30 iyul 1998-ci il tarixli 11/1 nömrəli qərarı ilə Alçabulaq kənd sakini Nərimanov Sahratxan Sayad oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0080; KOD 80419028) itdiyi üçün etibarsız sayılır.

Sumqayıt Dövlət Universiteti Kotirovka sorğusu elan edir: 1. Digər alışlar və xidmətlər; 2. Mətbəə xərcləri; 3. Sair xərclər. (Konfransların keçirilməsi). Təklifləri 13 aprel 2018-ci il tarixədək saat 14:00-dan gec olmayaraq, aşağıdakı ünvana təqdim etməlidirlər. Sumqayıt şəhəri, 43-cü məhəllə. Tel/faks: (012) 448-44-56. Tender Komissiyası.

TƏKRAR

## Nəsimi Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot-1.** Təsərrüfat mallarının satınalınması.

**Lot-2.** Yumşaq inventarların satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Hər lot üzrə iştirak haqqı 50 (əlli) manat.**

**Tel.: 050-378-51-51. Cavadov Elşad.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*A1. Emitent (ödəyən) bank/Remitting Bank*
*Adı/ Name DXA*
*Kodu/Code 210005*
*VÖEN/İNT 1401555071*
*Müxbir hesab/ Corr. Acc.*
*AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. S.W.İ.F.T CTREAZ22*
*A2 Ödəyən müştəri/Oredering Customer*
*Adı/Name Nəsimi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi*
*Hesab N Account No*
*AZ49CTRE00000000000002518232*
*VÖEN/İNT 14-332551*

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küç. 112**
**nesimirayonmktb@mail.ru**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*— tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 23 aprel 2018-ci il saat 18:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 1 may 2018-ci il tarixdə saat 18:00-a qədər təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 2 may 2018-ci il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sumqayıt Bulvar" MMC

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 - Elektrik nöqtələrinə (fantanlar, işıq dirəkləri) ehtiyat hissələrin alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Sumqayıt şəhəri, Bulvar küçəsi 58 (Əlaqələndirici şəxs: Şahin Mehbaliyev, telefon: (018) 655-04-75) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**Lot -1 100 manat**

*H/ Hesabı:*
*AZ58GUNA40060038757000000001*
*VÖEN: 2904286811*
*Bank: "Günay Bank" ASC*
*Kodu: 512714*
*VÖEN: 1700028531*
*M/ Hesab:*
*AZ25NABZ01350100000000047944*
*S.W.İ.F.T: GUNAAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 aprel 2018-ci il tarixdə, saat 17:00-dək, tender təklifi və bank təminatını isə 2 nüsxədə (əsli və surəti) imzalanmış, möhürlənmiş ikiqat zərfdə 8 may 2018-ci il tarixdə, saat 18:00-dək Sumqayıt şəhəri, Bulvar küçəsi 58 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 may 2018-ci il tarixdə, saat 10:00-da Sumqayıt şəhəri, Bulvar küçəsi 58 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Kooperasiya Universitetinin rektorluğu və professor-müəllim heyəti Tədris şöbəsinin müdiri Aydın Mirzəmmədova, atası**

**ZABİT müəllimin**

**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-95-51;**
Humanitar siyasət redaksiyası: **539-26-18;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **539-26-18;**
Reklam və elan xidməti: **441-20-23.**






● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Ataş CƏBRAYILOV**

● **Çapa imzalanmışdır**
**03.04.2018**